AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ

F.KÖÇƏRLİ adına RESPUBLİKA UŞAQ KİTABXANASI




# Gələcəyə baxış: Uşaq dünyasında kitabxananın rolu

(elmi metodik vəsait)

BAKI- 2015

# ÖN SÖZ

**"Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır".**

***Ulu öndərimiz Heydər Əliyev***

Gənc nəslin ağıllı, milli-mənəvi dəyərlərə bağlı olaraq formalaşmasında uşaq ədəbiyyatı sahəsində çalışan ediblərimizin böyük rolu vardır. Uşaqların mütaliə potensialının artırılmasında maraqlı kitabların yazılmasına daim ehtiyac vardır. Çünki uşaqların şəxsiyyət kimi formalaşması uşaq ədəbiyyatının səviyyəsindən asılıdır. Uşaqların cəmiyyəti anlama, təbiəti tanıma, özünü dərk etmə qabilliyətini məhz kitablar təmin edir. Bu mənada oxucuların müasir tipli uşaq kitabxanalarına gələrək mütaliə etməsi, asudə vaxtlarını orada keçirməklə, lazımı informasiya tələbatına malik olması ən vacib, aktual məsələdir. Əlbəttə ki, burada rəngarənglik, müxtəlif mövzularda uşaq ədəbiyyatının olması, kitabxanada uşaqlar üçün hər bir şəraitin yaranması əsas şərt olduğu kimi, kitabxanaçının da bu işləri necə məharətlə həyata keçirməyi əsas məsələlərdəndir.

Informasiyalaşdırılmış cəmiyyətə keçidlə əlaqədar olaraq kitabxanaların əhaliyə xidmət formaları zamanın tələbinə uyğun dəyişdirilməlidir. Xüsusilə də bu məsələyə uşaq və məktəb kitabxanalarında böyük diqqət yetirilməlidir. Belə ki, uşaqlarda təfəkkürün və digər şəxsi keyfiyyətlərin formalaşması məhz mütaliə prosesi zamanı baş verir. Yəni uşaq kitabxanalarında mütaliə sistemli və ardıcıl təşkil edilməlidir. Bu da onların təfəkkür tərzinin formalaşmasına müsbət təsir göstərir. Uşaq təfəkkürü hələ tam formalaşmamış olduğundan onların mütaliəsinə nəzarət, rəhbərlik etmək, istiqamətləndirmək zəruridir. Uşaqlıq dövründən yeniyetməlik dövrünə və digər yaş dövrünə keçiddə uşaqlar qarşılarına çıxan müxtəlif problemləri həll etmək üçün tələb olunan vərdiş və təcrübəni kitabxananın bilavasitə iştirakı ilə təşkil edilən mütaliənin köməyi ilə qazanırlar. Buna görə də uşaqlarda mütaliə mədəniyyətinin formalaşdırılması ilə həm ailədə, həm də pedoqoji qaydada məktəblərdə və kitabxanalarda məşğul olunmalıdır.

Çünki bu günün uşağı gələcəkdə bu resursların istifadəçisidir və uşağın gələcəkdə bu resurslardan necə istifadə etməsi kitabxanaçıdan bilavasitə asılıdır.

Uşaqlarda mütaliə vərdişlərinin erkən yaşlarda aşılanması olduqca vacib amillərdən biridir. Çünki çox mütaliə edən uşaqların intellekti daha sürətlə inkişaf edir. Elə bu vəsaiti tərtib etməkdə məqsədimiz digər ölkələrin iş təcrübəsinə əsaslanaraq, eləcə də öz kitabxanamızın keçirdiyi tədbirlər əsasında müasir dövrümüzdə uşaqlarımızın xoşbəxt, firavan həyatına yeni dəyərlər gətirmək, tez-tez dəyişən, inkişaf edən rəngarəng dünyamızda uşaqlarımızın mütaliə aləmini zənginləşdirmək, dünya görüşünü artırmaqla hər cür yeniliklərə qarşı onların daha savadlı, zəkalı böyüməsinə təkan verməkdir.

Bu məqsədlə də uşaqlara mütaliə etmək vərdişlərini aşılamaq üçün hazırladığımız vəsaiti sizə təqdim edirik. Vəsait 3 hissədən ibarətdir. **I hissə Kitabxanada dərslərin təşkili** adlanır və 3 bölmədən ibarətdir: **Dərnəklərin təşkili; Viktorinaların və oyunların təşkili; Nağıl otağı**

**II hissə Uşaqlarda mütaliə mədəniyyətinin aşılanması** adlanır, 3 bölmədən ibarətdir: **Oxucuların informasiya mədəniyyəti; Litva Milli Uşaq Ədəbiyyatı Mərkəzinə səyahət; Kompüter və uşaq yaradıcılığı.**

**III hissə Valideynlər və uşaq mütaliəsinə rəhbərlik edənlərlə iş** adlanır. Burada **" Kitabları uzun ömürlü edək "** ( kitabsevərlərin devizi ) başlıqlı material yerləşdirilmişdir.

Təqdim etdiyimiz bu vəsaitlə uşaqların intellektual səviyyələrinin artmasında böyük rol oynayan kitabxanaçıları oxucu cəlbində yeni forma və metodlardan istifadə etməklə maarifləndirmək istəyirik.

Vəsaitdən uşaq, məktəb, kollec kitabxanaçıları, həmçinin uşaqların mütaliəsinə rəhbərlik edənlər istifadə edə bilərlər. İnanırıq ki, bu vəsait təlimi-didaktik baxımdan bütün uşaq şöbələrində, məktəb və liseylərdə çalışan kitabxanaçıların stolüstü kitabına çevriləcək, bundan istifadə etməklə öz işlərini düzgün qurmaqla yararlanacaqlar.

# GİRİŞ

Kitabxanalar ölkənin mədəni və ictimai həyatında əsas yerlərdən birini tutur. Kitabxanaların əsas məqsədi cəmiyyətin intelektual-mədəni inkişafına kömək etmək, onu insanların vasitəsilə təkmilləşdirməkdən ibarətdir. Kitabxana dünyası möhtəşəmdir. Avropa birliyi ərazisində 90000 kitabxana, ümumilikdə isə YUNESKO-nun məlumatına görə dünyada yarım milyon kitabxana fəaliyyət göstərir. Məhz həmin yarım milyonluq kitabxanalardan biri də – ölkəmizdə uşaqların üz tutduqları, sevdikləri məkan- Firidun bəy Köçərli adına Respublika  Uşaq Kitabxanasıdır.

Uşaqlardan söz düşəndə, adətən, “onlar bizim gələcəyimizdir“ deyirik. Bu aksiomdur. Çünki hər bir ölkənin gələcəyi böyüməkdə olan nəslin çiyinləri üzərinə düşür. Buna görə də uşaqlara qayğı, eyni zamanda gələcəyimizə qayğı deməkdir. Bu işin maddi tərəfi - yəni uşaqların lazımınca qidalandırılması, sağlamlığı və sair məsələlər çox önəmlidir. Lakin balalarımızın milli ruhda, mənəvi cəhətdən sağlam, geniş dünyagörüşə malik insan kimi yetişməsində uşaq tərbiyə müəssisələri və məktəblə yanaşı, uşaq kitabxanalarının üzərinə də böyük vəzifələr düşür. Bəs, bu gün ölkəmizdə həmin sahədə vəziyyət necədir?

Məlum olduğu kimi, uşaqlar üçün yazılan bədii və elmi-kütləvi əsərlər məcmusu “uşaq ədəbiyyatı” adlanır. Bədii ədəbiyyatın tərkib hissəsi olan uşaq ədəbiyyatı nümunələrində xalqların və uşaqların həyatına dair, onların yaş xüsusiyyətlərinə, qavrama qabiliyyətlərinə uyğun janr, forma və üslubda müxtəlif problemlər qaldırılır, gənc nəsildə yüksək əxlaqi keyfiyyətlər, vətənpərvərlik, sədaqət, dostluq, doğruluq, əməksevərlik, insanpərvərlik və humanizm kimi yüksək insani keyfiyyətlər tərbiyə edilir. Uşaqlar üçün yazılan əsərlər xeyirxah, mərd və cəsur qəhrəmanları, maraqlı süjet və kompozisiyası, sadə və aydın bədii ifadə vasitələri, səlis

dili ilə seçilir. Uşaq folklor antalogiyasının banisi sayılan Firidun bəy Köçərli deyirdi: “O millət ki, öz tarixini, vətənini, dilini sevir – bu qisim əsərləri kamal-şövq və diqqətlə cəm edib sərmayə kimi saxlayır və balalarının ilk təlim və tərbiyəsini onları oxutmaq ilə başlayır».

Uşaq ədəbiyyatı nümunələri tariximizlə, soykökümüzlə, mənəvi dəyərlərimizlə bağlı olduqda yetişməkdə olan yeni nəsli vətəni sevməyə, el-oba üçün xeyirli işlər görməyə səslədikdə daha gərəkli və yaddaqalan olur, maraqla oxunur. İnamla demək olar ki, uşaq ədəbiyyatı da bu qayəni özündə ehtiva edən nümunələrlə zəngindir. Uşaq folklor antalogiyasının banisi olan Firidun bəy Köçərli hər bir uşaq ədəbiyyatı nümunəsinin təkcə uşaqlar üçün deyil, böyüklər üçün də maraq dairəsində olduğunu deyirdi. Firidun bəy bunu bir pedaqoq və ədəbiyyatşünas kimi həssaslıq və peşəkarlıqla belə dəyərləndirirdi: « Böyük adamların ürəklərinin açılmağına səbəb o olacaqdır ki, onlar mütaliə əsnasında öz uşaqlıq vaxtlarını ixtiyarsız xatırlarına gətürəcəklər. Bu isə, yəni qəlbi şad etmək, özlüyündə bir xidmətdir.»

Kitab, təfəkkürün yorulmayan qanadı, zamanın dalgaları üzərində səyahət edən və öz qiymətli yükünü nəsillərdən-nəsillərə daşıyan fikir gəmisidir. Bu gəmi ilə səyahət edərək mütaliə edən insan kamilləşir, onun nitq və qabiliyyəti inkişaf edir, bilikli, söhbətcil, hazircavab olur, bəd, pis əməllərdən uzaqlaşır. Lev Nikolayeviç Tolstoy demişdir: “Mütaliədən aldığım ləzzəti, dünyanın heç bir ləzzətinə dəyişmərəm”. Ümumiyyətlə, insanın mənəvi inkişafı mütaliə vərdişinə bağlıdır. Bugünkü günümüzdə kitab oxumaqdan gözəl əyləncə tapmaq çətindir. Bizim köməyimizə bu işdə kitabxanalar gəlir.

Böyüklər hər bir uşaqla emosional münasibət qurmağa səy göstərməlidirlər. Uşaqların saçını tumarlamaq, onların könlünü ələ almaq, onları dinləmək bacarığı uşaqlarla işləyən hər bir insanda olmalıdır. Çox vaxt uşaqlar ailədə deyə bilmədiklərini onlarla daha yaxşı ünsiyyət quran

kitabxanaçıya deyə bilirlər. Bu mənada da uşaqlarla işləyən kitabxanaçılar psixoloq olmalıdırlar. Böyüklər uşağın təşəbbüsünə, təşəbbüs göstərmək cəhdlərinə həmişə cavab verməyə hazır olmalıdırlar. Uşaq, adətən, özünü rahat hiss etmədikdə buna ehtiyac duyur. Uşağın kədərlənməsinin səbəbləri müxtəlif ola bilər: fiziki nasazlıq, ailədə münaqişə, yaşıdlarından inciməsi, nəyisə bacarmaması, böyüklərin onu dinləməməsi və sair. Bu zaman kitabxanaya gələrkən kitabxanaçının vəzifəsi uşağın keçirdiyi hissləri başa düşmək, ona kömək etmək və uşağı nəsihətamiz şəkildə vəziyyətdən çıxarmaqdır. F.Köçərli adına Respublika Uşaq Kitabxanasında kiçik yaşlılar arasında keçirilən "Kitabxanaçı necə olmalıdır?" adlı rəy sorğusunun nəticələrinə görə kitabxanaçı gülərüz, onları başa düşən, ürəyindən keçənləri duya bilən, sehrbaz, bütün kitablardan xəbərdar olan bir kəs olmalıdır. Uşaq ədəbiyyatı ilə uşaqlara xidmət edən kitabxanaçı daha çox oxunan, uşaqların maraqla qarşıladıqları, həmçinin özünün də xoşuna gəldiyi ədəbiyyatı təbliğ edir. Bu səbəbdən də uşaq ədəbiyyatı yazanlar müasir uşaqların gündəlik həyatlarından xəbərdar olmalı, onların üzləşdikləri problemləri bilməlidirlər. Uşaq ədəbiyyatında həyatın bütün sahələri əks olunmalıdır. Həyatda elə bir problem yoxdur ki, uşaq ədəbiyyatında ona toxunmaq mümkün olmasın. Uşaq maraqlarını səngitmək, onu lazımi məcraya yönləndirmək baxımından uşaq ədəbiyyatının xidməti əvəzsizdir.

# I hissə: Kitabxanada dərslərin təşkili



Müasir məkanda oxumaq, yazmaq bacarığı ilə yanaşı, informasiyanı əldə etmək bacarığı, oxu mədəniyyəti vərdişlərinə yiyələnmək bacarığı da tələb olunur:

• Kitaba maraq, şüurlu münasibət, oxu gigiyenası, kitabla rəftar etmək qaydalarını bilmək;

• Kitabı müstəqil seçmək bacarığı, kataloq, kartotekalardan və tövsiyə siyahılarından istifadə etmək bacarığı;

• Müxtəlif sorğu ədəbiyyatı ilə tanışlıq-lüğətlər, ensklopediyalar, dərs prosesində əldə edilən bilikləri təkmilləşdirmək məqsədilə həmin ədəbiyyatla sərbəst işləmək bacarığı.

Uşaq kitabxanalarında keçiriləcək dərslərin məqsədi uşaqlarda kitaba müntəzəm maraq oyatmaq,  kitab, qəzet, jurnal ilə ilkin rəftar etmək bacarığı və kitabxana aləmində düzgün istiqamətləndirməni öyrətməkdən ibarətdir. Dərslər keçirilərkən uşaqların yaş xüsusiyyətlərini də nəzərə almaq lazımdır.

Hal-hazırda məktəb kitabxanalarının texniki təhcizat baxımı yüksək səviyyəsi ilə fərdi kitabxanalardan heç də fərqlənmir. Hətta fərdi kitabxanalar ilə rəqabət imkanına malikdir və elə oxucu axınının əvvəlki

illərə nisbətən azalması bu səbəblərlə izah olunur. Lakin məktəb kitabxanasından fərqli olaraq, uşaq kitabxanasının iş prinsipi daha da geniş, yadda qalan, effektlidir. Çünki kitabxanaya oxucularla bərabər valideynlər də gəlirlər ki, bu artıq irəliyə doğru bir addımdır. Oxucunu cəlb etmək məqsədi ilə kitabxana işçiləri müxtəlif əlverişli üsullardan istifadə edir, oxucunun etik normasına cavab verən çərçivədə hərəkət edirlər. Uşaq kitabxanaları məktəb kitabxanalarından fərqli olaraq dərsliklərlə deyil, uşaq ədəbiyyatı ilə daha zəngindir.

Oxucu cəlbinin ən əlverişli və səmərəli üsullarından biri kitabxanada açıq rəf üsuludur. Hesab edirik ki, açıq rəf üsulu oxucuların kitabxanada özlərini sərbəst aparmağına, biliklərinin və dünyagörüşlərinin zənginləşməsinə müsbət təsir göstərir. Xidmət şöbələrində açıq rəf üsulu oxucunun və valideynlərin kitabxanaya marağını artırır, oxucu gəlişinin çoxalmasına  səbəb olur. Burada kitablar kiçikyaşlı oxucular üçün əllərinin çatacağı məsafədə olacaq rəflərdə - “Nağıllar”, “Fəsillər”, “Heyvanlar haqqında”, “Məntiq”, “Fantastika” və s. mövzularda yığılmalıdır. Valideynlər üçün isə “Valideyn guşəsi” olmalıdır. “Valideyn guşəsi”ndə pedaqogikaya, təlim-tərbiyə problemlərinə, mütaliəyə rəhbərlik etmək üsullarına dair ədəbiyyat toplanmalıdır. Rusiya uşaq kitabxanalarının bir çoxu artıq adlarını dəyişərək “Ailəvi oxu kitabxanası” adı almışdır. Bizim kitabxanada ailəvi abonement işi daha yaxşı təşkil olunmuşdur. Valideynlərlə kitabxanaya daxil olanların hər ikisinə eyni vaxtda xidmət olunur. Valideynlər böyük oxu zalında onlara lazım olan ədəbiyyatı götürərək oxuyur, balacalar isə kiçik oxu zalı, Nağıl otağında mütaliə edərək istirahət edirlər.

Xidmət şöbəsi yay tətillərində, şəhər ətrafında yerləşən və fəalliyyət göstərən uşaqların istirahət düşərgələri ilə sıx əlaqə saxlayır. Düşərgə işçiləri kitabxananın təqvim planı ilə tanış olandan sonra onlara lazım olan tədbirləri müəyyənləşdirir və tədbirlə əlaqədar materialları kitabxanadan əldə edir, birgə tədbir hazırlayırlar. Yay mövsümündə pansionatlarda,

sanatoriyalarda, istirahət parklarında təşkil olunan “Yay oxu zalı” artıq neçə illərdir ki, Bakının ətraf kəndlərində yerləşən məktəbli oxuculara kitabxananı tanıdaraq lazım olan məqamlarda ondan istifadə etməyə yönəldir. Yay oxu zalında onlar kitabxananın təsis etdiyi “Göy qurşağı” uşaq jurnalı vasitəsilə kitabxanada olan yeni kitablar, kitabxananın veb.saytının ünvanını və s. dolğun məlumatlara yiyələnirlər.

Ümumiyyətlə, kitabxanalarda təşkil edilən bütün məktəbdənkənar tədbirlər, xüsusən dərnək məşğələləri, söhbətlər, disput və müzakirələr, ədəbi-bədii gecələr və s. tədbirlər oxucuların asudə vaxtının səmərəli keçməsinə geniş şərait yaradır.

Məlum olduğu kimi, yaradıcılıq qabiliyyəti hər bir uşaqda mövcuddur. Buna görə də uşaq kitabxanalarının başlıca vəzifələrindən biri oxuculara bədii yaradıcılıq fəaliyyətinin müxtəlif növləri ilə məşğul olmaq üçün əlverişli şərait yaratmaqdır. Bu şərait elə təşkil olunmalıdır ki, o, oxucuların yaradıcılıq qabiliyyətinin aşkara çıxarılması ilə yanaşı, onların inkişafına və təkmilləşməsinə təsir etsin. Məsələn, uşaqlar “Gənc müxbirlər”, “Ədəbiyyat”, “Bədii qiraət”, “Sağlam kitablar” dərnəkləri vasitəsilə öz istedadlarını, bədii-estetik zövq və mənəvi tələbatlarını, incəsənətə olan meyllərini üzə çıxarır, cırılmış, köhnəlmiş kitabları bərpa edərək yenidən “həyata qaytarırlar”.

Yuxarıda göstərdiyimiz bütün təbliğat formalarından istifadə edərək uşaqları mütaliəyə cəlb etmək mümkündür. MKS-nin hər bir uşaq şöbəsi və filialları öz üzərinə düşən bu mühüm vəzifənin öhdəsindən layiqincə gəlməlidir.

Xidmət şöbəsinin işçiləri oxucunun diqqətini cəlb etməkdən ötrü sandıqçanın içinə onları maraqlandıran mövzuda kitabları və ya uşaq yazıçılarının əsərlərini yığa bilərlər. Təqvim planına uyğun olaraq bu materiallar vaxtaşırı dəyişdirilə bilər. Belə mövzulardan “İdman sağlamlığın rəhnidir”, “Sənin maraq dünyan”, “Ekologiyamızı qoruyaq” və s.

Orta yaş qrup oxucuları ilə (10-13 yaş) elmi fantastik kitabların müzakirəsini keçirmək olar. “İntellektual səviyyəmizi yüksəldək” adlı tədbir kimi Reyhan Yusifqızın kitablarının sərgisi təşkil etmək, elmi fantastik seriyadan "Yaşıl gözlü qız"ın davamı olan “Zamanın əsirləri” kitabının təqdimatını, müzakirəsini keçirmək olar.  Görüşdə uşaqlar yazıçının “Xoşbəxt arı”, “Göylərdən gələn səs” hekayələri üzrə səhnəcik hazırlaya bilərlər. Tədbir iştirakçıları Reyhan Yusifqızı yaradıcılığına həsr olunmuş video çarxlı slaydlarıı izləyə, diskussiyada iştirak edə bilərlər.

Bundan başqa, yuxarı sinif şagirdləri ilə də hər hansı bir yazıçının yubileyi ilə əlaqədar tamaşa hazırlamaq olar. Belə tədbirlərdə oxucular şəxsən tamaşanın quruluşunda bir rejissor, aktyor kimi iştrak edirlər. Bu peşəyə hələ sahib olmasalar da ilk addımlarını oxucusu olduqları kitabxanada atırlar. Tamaşa yüksək yaradıcılıq standartlarına cavab verməsə də, faktın özü təqdirəlayiqdir. Universitetlərin hüquq, sosiologiya, psixologiya fakultələrinin tələbələri uşaqlar arasında sorğular, sosioloji araşdırmalar apara bilərlər. Müxtəlif gün və xüsusi ayrılmış saatda onlar kitabxanaya gəlib treninglər keçirə, oxucuları, valideynləri maraqlandıran suallara cavab verə bilərlər. Bu sorğuda kitabxanada olan sağlam uşaqlarla yanaşı əlilliyi olanlar da iştirak edəcək. Bu da əlil uşaqların cəmiyyətə inteqrasiyasında böyük rol oynayacaqdır.



Uşaqlara körpəlik dövründən kitabı sevmək, kitabxananın əhəmiyyətini anlamaq, diqqət , öz fikrini, rəyini ifadə etmək kimi bilik və bacarıqlar aşılanmalıdır. Uşaq kitabların onun gələcək həyatına olan təsirini anlamalıdır. Uşaqların əksəriyyəti kitabxanada özlərini düzgün apara bilmir, orada bərkdən danışır, bəzən kitabın üstündə yemək yeyir, kitabı yazır və istədikləri materialı kəsib götürürlər. Kitabxanadan istifadə qaydalarını bilmədikləri üçün ona lazım olan ədəbiyyatı yerinə qoymaq, tapmaq yorucu olur. Bəzi uşaqlar xüsusi fitri istedada malik olur və onların istedadlarını genişləndirmək üçün dərnəklərin təşkili vacibdir. Təəssüflər olsun ki, uşaq kitabxanalarında belə dərslərin keçirilməməsi səbəbindən uşaqların əksəriyyəti kitabxananın sirlərinə yiyələnə bilmir, kitaba və başqa əşyalara qayğı ilə yanaşmır, lazım olan materialı və ya kitabı düzgün axtarma metodunu bilmirlər..

Kitabxana dərslərinin, məşğələlərinin keçirilməsində məqsəd odur ki, uşaqlar kitabxana qaydalarına yiyələnsin, kitabxanadan özləri sərbəst istifadə etsin. Bu dərslərin köməyi ilə biz uşaqlara kitab, onun yaranması, kitabların rəflərdə düzülüşü, kitabı axtarma metodları haqqında məlumat verməli, kitabxanada oxucuların özlərini necə aparması qaydalarını öyrətməliyik. Belə dərnəklərin köməyi ilə uşaqlar  özü kitab düzəldir, ona ad

verir, illüstrator özü olur. Beləliklə onlar öz səyləri nəticəsində yaratdıqları hər bir şəklin, kitabın və digər əşyaların əziyyətlə düzəldiyini anlayacaqlar. Bu dərslərdə uşaqlar sərbəst olaraq fikirlərini ifadə edərək qavrayış və bacarıqlarını genişləndirəcəklər. MKS-nin uşaq şöbələrində barmaqcıqlı, kukla teatrının olması uşaqlara nağıl qəhrəmanlarını tanıtmaq, görmək, duymaq imkanı verir. Bunun üçün şirma arxasında uşaqların öz düzəltdikləri və səsləndirdikləri nağıl personajlarından istifadə etmək olar. Həmçinin dərnəklərdə uşaqlar barmaqcıqlı və kukla teatrı üçün qəhrəmanlar düzəltmək imkanı əldə edəcəklər. Bu dərslərin keçirilməsi biliklərə yiyələnməkdən yorulmamaq, daim yeniliklər aşkar etmək, hər bir şeyə qayğı ilə yanaşmaq, ətrafda estetik zövq yaratmaq kimi prinsipləri aşılamaq məqsədi daşıyır.



Kitabxanada keçirilən dərsləri aşağıdakı mövzular üzrə təşkil etmək olar:

Kitabxana nədir, nə üçün lazımdır? Nə üçün orada bərkdən danışmaq, qaçmaq, kitabın üstündə yemək olmaz?

Kitab haqqında məlumat. Kitab necə yaranıb, necə təşkil olunub və rəflərdə necə düzülür?

Kitabların ünsürləri haqqında məlumat.

Kitabın üzü ilk baxışdan bizə nə məlumat verir? (kitabın üzünü çək və kitabın nə haqda olacağı barədə öz fikirlərini yaz)

Başlıq nədir? (Şəklə bax və başlığı fikirləş. Şəkilləri rənglə)

İllüstrator kimdir? (Siz illüstrator olacaqsınız və hekayənin məzmununa uyğun şəkil çəkəcəksiniz)

Müəllif kimdir?

Şəkilli kitab kimlər üçündür? (Hekayəni dinlə, həmin hekayəyə uyğun şəkil çək)

Diskli nağıl kitabı. (Dinlədiyin nağılda xoşuna gələn nağıl qəhrəmanının şəklini çək)

Səsli nağılı dinlə, onun qəhrəmanları haqqında fikir yürüt. Nağıla ad qoy.

## Dərnəklərin təşkili:

Uşaqları maraqlı həyat aləminə aparmaq, ziyanlı işlərlə məşğul olmaqdan qorumaq, onların əsl şəxsiyyət kimi yetişməsinə kömək etmək məqsədilə təşkil olunan dərnəklərin işini səmərəli qurmaq kitabxanaçının əsas vəzifəsidir. Bu dərnəklərdə aşağıdakı ìstìqamətlərdə ìşlər aparıla bilər:

— müasìr uşaq və yazıçılarının tanıdılması baxımından bədii qiraət;

— yenì yazmağa başlayan gənc şaìrlərìn şerlərìnìn dìnlənìlməsì və müvafìq tövsìyələrìn verìlməsì;

— musìqì və poezìya nümunələrìndən vəhdətdə ìstìfadə edìlməsì;

— tarìxì günlərìn və bayramların, habelə görkəmlì elm və sənət adamlarının yubìleylərìnìn keçìrìlməsì;

— müxtəlìf mövzularda ədəbì-bədìì kompozìsìyaların hazırlanması və ìfası;

— uşaq şaìr və yazıçıları, əmək və mübarìbə veteranları , bəstəkar və alìmlərlə görüşlər.

Bu ìşlər kitabxananın özündə və filliallarının tərkìbìndə fəalìyyət göstərən aşağıdakı dərnəklər və klublar vasìtəsìlə həyata keçìrìlìr:

1) bədìì qìraət və bədìì ìfaçılıq dərnəyì;

2) şahmat dərnəyì;

3) rəsm dərnəyì;

4) bədii tikmə, “Qızıl əllər” dərnəyì;

5) gənc tərcüməçilər klubu;

6) ədəbì-bədìì kompozìsìyaların hazırlanması və ìfaçılığı dərnəyì;

7) ekologiya klubu;

8) şən və hazırcavablar klubu.

Valideynlər uşaqlarını dərnəklərə yazdırmaqla onların asudə vaxtını düzgün təşkil edir. İstedadlı uşaqlar məhz bu yaradıcı klub və dərnəklərin köməyi ilə üzə çıxır.

Dərnəklərdə dərslərin möhkəmləndirilməsi və dərslərə marağın genişləndirilməsi üçün aşağıdakı bilik və bacarıqlar öyrədilməlidir:

Kağızdan müxtəlif fiqurların düzəldilməsi

Xüsusi karton kartların hazırlanması

Müxtəlik formalı kitabların hazırlanması

Barmaqcıqlı nağıl qəhrəmanlarının düzəldilməsi

Əlfəcinlərin düzəldilməsi

Kitabxananın planının çəkilməsi

Toxuma bacarıqlarnın aşılanması

Müxtəlif tədbirlər üçün emblemlərin hazıranması

Oxucuların diqqətini cəlb etmək üçün uşaq kitabxanalarının saytları rəngarəng dizaynda olmalı, cizgi filmi və nağıl qəhrəmanlarının şəkillərindən istifadə edilməlidir. Saytdakı məlumatlar vaxtaşırı dəyişdirilərək yenisi ilə əvəz edilməlidir. Kitabxana eyni zamanda Elektron

kataloqunu tərtib etməlidir ki, oxucular bu kataloqun köməyilə özlərinə lazım olan ədəbiyyatı tapa bilsinlər. Saytda hətta balacalar üçün “Bacarıqlı əllər” dərnəyi rubrikası da açmaq olar. Burada uşaqlara kvilinq, aplikasiya, toxuma, oriqami  və s.texnikalarından istifadə qaydaları göstərilərək kitabxanada oxucuların düzəltdikləri gözəl əşyalar nümayiş oluna bilər. Bunlar da oxucuların İnternetdən faydalı istidadə etmələrinə kömək edər. Elektron nəşrlər bölməsində isə kiçik oxucular üçün bir-birindən maraqlı nağıl kitablarının Elektron versiyalarını yerləşdirmək olar.

## Viktorinaların və oyunların təşkili:

Uşaqları mütaliəyə cəlb etmək üçün daha münasib və onların diqqətlərini cəlb edəcək üsullar seçmək lazımdır. Bildiyimiz kimi insan diqqəti ixtiyari və qeyri-ixtiyari olmaqla iki yerə ayrılır. Kitabxanaçılar hər iki istiqamətdə hərəkət edərək uşaqlarda mütaliəyə maraq yaratmalıdırlar. Bunun üçün kitabxanaçılar öz bilik və bacarıqlarına əsaslanmalıdırlar.

Kiçik yaşlı  uşaqlarda mütaliəyə həvəs yaratmaq üçün mütaliəni onlara əyləncəli üsullarla aşılamaq lazımdır. Uşaqlar aparılan işin gedişindən zövq almalı, təbliğatın fərqinə belə varmamalıdırlar. Bu məqsədə nail olmaq üçün kitabxanaçılar uşaqlar üçün düşünülmüş oyunlar, viktorinalar hazırlamalıdırlar ki, uşaqlarda mütaliəyə qarşı sevgi və maraq yaratsın.

Orta və yuxarı sinif şagirdləri üçün daha fərqli düşünülmüş oyunlar tətbiq etmək lazımdır. Bu yaş qrup oxucular arasında intellektual yarışlar keçirmək olar. Bu kimi oyunlarla uşaqlarda daha çox öyrənmək və bilmək rəqabəti yaratmaqla onları mütaliə etməyə cəlb etmək olar. Bundan başqa uşaqlar üçün müxtəlif fənnlər üzrə bilik yarışmaları da təşkil etmək mümkündür. Riyaziyyat, kimya, fizika və s. gecələrdə  şagirdlər müxtəlif fənlərlə əlaqədar olan kitablarla maraqlanır, onları əldə etməyə çalışırlar. Intellektual oyunlar zamanı iştirakçılar üçün maraqlı suallar hazırlanır.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının iş təcrübəsində belə tədbirlər keçirilir. Ən maraqlı tədbir kimi bunu göstərə bilərik: "Ən nümunəvi oxucu" adlı oxucu komandaları arasında yarış. Komandanın tərkibində müxtəlif yaş qrupları olur. Həmin yarışmanın I turunda iştirakçılar yalnız əldə olan məlumat nəşrlərindən (ensiklopediya, lüğətlər, soraq kitabları və s.) verilən informasiyanı axtarıb tapırlar. II turda kataloq, kartotekalardan istifadə etməklə, III turda isə yalnız İnternet axtarış saytları, virtual arayış, Elektron kartotekaların köməyindən istifadə etməklə yarışmada iştirak edirlər. Bununla da tez və düzgün tapmaqla qalib komanda müəyyənləşir və onlar kitabxananın fəxri diplomu olan **"Fəxri oxucu"** adına layiq görülürlər. Həmin komanda üzvlərinin şəkilləri və onlar haqqında məlumat kitabxananın girəcəyində **"Bizi əvəz edən oxucularımız"** başlığı altında divara vurulur.

Kitabxanada "Bacarıqlı əllər" adlı dərnəkdə təkcə uşaqlar deyil, onların valideynləri də iştirak edirlər. Bu da uşaqları gördükləri işə valideynlərinin köməyi ilə daha da maraqla yanaşmalarına kömək edir. Onların düzəltdikləri gözəl əşyalar müxtəlif müsabiqələrdə, sərgilərdə nümayiş etdirilir.

Kitabxanalarda viktorinalar biliklərin və bacarıqların qiymətləndirilməsi üçün təşkil olunur. Viktorinalar daha çox geniş kitab sərgilərində, kitab bayramlarında, kitab festivalında və mütaliə həftəsində uşaqların diqqətini cəlb etmək məqsədilə təşkil olunarsa faydalı olar. Bu tipli məşğələlərdə daha çox kitablar, müəlliflərlə bağlı suallar qoyulmalıdır.

Kitabxana plakatlarında da viktorina- tapmacalardan da istifadə etmək olar. Hər hansı bir yazıçının yubileyi və ya mövzu üzrə hazırlanmış bu plakatlarda uşaqlar məzmunu bildirən kitabdakı şəkillər, sitatlar, kiçik dialoqla hansı yazıçıya məxsus olması və ya hansı kitabdan olması cavabını tapıb sərginin yanında yerləşdirilmiş poçt qutusuna ata bilərlər. Ən çox düzgün cavab tapan oxucunu qiymətləndirməklə oxucuları

həvəsləndirmək olar. Məsələn: F.Köçərli adına Respublika Uşaq Kitabxanasında Nizami Gəncəvinin 870 illik yubileyi ilə əlaqədar “Hikmət xəzinəsi” adlı kitabxana plakatını buna misal göstərmək olar.

Yazıçılarla görüşlərdə, Kitab bayramlarında kiçik yaşlı uşaqlar arasında keçirilən “Boxçadan suallar”, “Sandıqçadan suallar” kimi maraqlı viktorinalar nağıl qəhrəmanları tərəfindən keçiriləndə uşaqlarda daha çox maraq doğurur. Cırtdan öz torbasından hədiyyələr çıxarıb düzgün cavab tapanı qiymətləndirir.

## Nağıl otağı

Uşaqlara kiçik yaşlarından kitabı sevmək, kitabxananın əhəmiyyətini anlamaq kimi mühüm bacarıqlar aşılanmalıdır. Onlar kitabxanada olarkən artıq kitabların onların həyatında necə müsbət rol oynadığını, daha çox biliklərə malik olduqlarını anlayacaqlar. Bu məqsədlə Mərkəzi Kitabxana Sistemlərinin uşaq şöbələri və bütün filillarında Nağıl otağının olması zəruridir. Nağıl otağında onlar özlərini nağıllar aləmində olduqları kimi hiss edəcək, sərbəstlik, asudə vaxtlarından düzgün istifadə etməklə təkcə öz nağıllarımızı deyil, müasir dünya xalqlarının nağılları haqqında informasiya əldə edə biləcəklər.

MKS-in uşaq şöbə və filiallarında Nağıl otağının yaradılması kitabxanaya kiçik yaşlı oxucuların cəlb olunması istiqamətində daha uğurlu addım ola bilər. Yerlərdə yaradılacaq Nağıl otaqlarında folklorumuzun ən yaxşı nümunəsi olan nağıllarımızı yaşatmaqla kiçik yaşlıları kitabxanaya cəlb etmək, onlarda mütaliə mədəniyyətinin formalaşmasına nail olmaqdır. Nağıl otaqlarının yaradılması və onların ən zəruri avadanlıqlarla təmin olunması əsas şərtlərdən biridir. Təşkil olunan Nağıl otağını “Bacarıqlı əllər” dərnəyinin, fəal oxucuların köməyi ilə bəzəmək olar. Nağıl otağında uşaqların səsli nağıl disklərini dinləmək üçün DVD maqnitafonu, kompyuter,

iki kitab dolabı,divan və yaxud arxası olmayan yumşaq oturacaqlı skamya, rəngli printer aparatı olmalıdır. Yerə uşaqlar üçün xalça salınmalı, xalçanın üstündə yumşaq mütəkkələr qoyulmalıdır. Nağıl otağında kiçik yaşlı uşaqlar üçün oturacaqlar müxtəlif rənglərdə olsa daha yaxşı olar. Yaxşı olar ki, nağılı söyləyən kitabxanaçı hər dəfə qrimlənsin, özünü nağıl danışan nənə obrazına oxşatsın. Uşaqlar bu geyimdə onu tanımasınlar, yalnız nağıl danışan nənə kimi qəbul etsinlər. Kənd filiallarında bu işi nənələri kitabxanaya dəvət etməklə həyata keçirmək olar. Bu otaqda ən fəal nənə uşaqları ətrafına yığıb corab toxuya-toxuya, cəhrədə yun əyirə-əyirə, və yaxud xalça toxuyaraq nağıl söyləyər.

Informasiyalaşdırılmış cəmiyyətə keçidlə əlaqədar olaraq kitabxanaların əhaliyə xidmət formaları zamanın tələbinə uyğun dəyişdirilir. Xüsusilə də bu məsələyə uşaq kitabxanalarında böyük diqqət yetirilir. Belə demək olar ki, inkişaf etmiş dövlətlərdə təşkil olunan uşaq kitabxanaları, eləcə də kütləvi kitabxanaların uşaq şöbələrində məkana daha çox üstünlük verilir. Kiçik yaşlı oxuculara xidmət şöbəsinin uşaqların estetik zövqünə uyğun gözəl tərtibatı xüsusi əhəmiyyət kəsb edir. Burada uşaqların təkcə mütaliə yox, həm də gözəl istirahətləri üçün hər bir şey nəzərə alınmalıdır.

Uşaqlarda təfəkkürün və digər şəxsi keyfiyyətlərin formalaşması məhz mütaliə prosesi zamanı baş verir. Yəni uşaq kitabxanalarında mütaliə sistemli və ardıcıl təşkil edilməlidir. Bu da onların təfəkkür tərzinin formalaşmasına müsbət təsir göstərir. Uşaq təfəkkürü hələ tam formalaşmamış olduğundan onların mütaliəsinə nəzarət, rəhbərlik etmək, istiqamətləndirmək zəruridir. Uşaqlıq dövründən yeniyetməlik dövrünə və digər yaş dövrünə keçiddə uşaqlar qarşılarına çıxan müxtəlif problemləri həll etmək üçün tələb olunan vərdiş və təcrübəni kitabxananın bilavasitə iştirakı ilə təşkil edilən mütaliənin köməyi ilə qazanırlar. Buna görə də uşaqlarda mütaliə mədəniyyəti tərbiyəsi formalaşdırılması ilə həm ailədə,

həm də pedaqoji qaydada məktəblərdə və kitabxanalarda məşğul olunmalıdır. Çünki bu günün uşağı gələcəkdə bu resurslarının istifadəçisidir və uşağın gələcəkdə bu resurslardan necə istifadə etməsi kitabxanaçıdan bilavasitə asılıdır. Bu zaman uşaqlara fərqli yanaşmaq vacibdir. Çünki onlar kitabxanaçının köməyinə həmişə dərin ehtiyac duyurlar. Kitabxanaçı uşaqların mütaliəsinə rəhbərlik edərkən üç əsas məsələyə diqqət yetirməlidir.

Kitab seçməkdə uşağa kömək etmək;

Seçilən kitabın oxunmasına həvəs yaratmaq;

Seçilən kitabın səmərəli mütaliəsi üçün düzgün istiqamət vermək

Ümumiyyətlə, kitabxana faktorunda valideyn əsas, aparıcı rollardan birini oynayir. F.Köçərli adına Respublika Uşaq Kitabxanasında müxtəlif yaş qrupuna uyğun dərnəklər fəaliyyət göstərir. Bunun bariz nümunəsi nağıl otağıdır. Xüsusi təyin olunmuş günlərdə Nağıl saatı keçirilir. Valideyinlərlə birlikdə, məktəbəqədər uşaqlar üçün nağıl otağında kitabxanaçı hər hansı bir ölkənin və ya yazıçının nağılını söyləyir. Nağılı nəql edən kitabxana işçisi o qədər maraqlı uşaq anlamına yaxın dildə danışır ki, ətrafında toplaşan uşaqlar, valideynlər, məktəbliləri müşaiyət edən sinif müəllimləri, həmin aləmin sehrinə daxil olaraq bilavasitə nağılın iştrakçısına çevrilirlər. Nağıl nəql olunan zaman uşaqlara söz azadlığı verilir. Uşaqları ələ almağı bacaran psixoloq onlara heç nəyi irad tutmur, çünki son nəticədə verilən suallar o qədər məntiqli və sadədir ki, uşaqların verdikləri cavab valideyinləri sevindirir. Nağıl bitəndən dərhal sonra məktəbəqədər uşaqlar valideyinləri ilə birgə əl işləri üzrə xüsusi ayrılmış dərnək otağına keçirlər, bu otaqda uşaqlar nağıldan aldıqları təəssüratı öz təfəkkürləri, fantaziyaları toplumu çərçivəsində ağ kağız üzərində valideyinlərinin koməkliyi ilə təsvir edirlər. Bu uşaqlar ilə birlikdə nağıla qulaq asan I-V sinif şagirdləri elə buradaca qalaraq daha geniş şəkildə “dahiyanə” nağılı təhlil edir, nağılın müsbət və mənfi təsirini heyrətamiz, idraklı, ağıllı fikirlərlə analiz edirlər. Bu

zaman onları gətirən sinif müəllimləri əllərindəki konvertdən kvadrat şəklində kəsilmiş və üzərində müxtəlif meyvələr və nağıl qəhramanları çəkilmiş kağızlarla uşaqların bilik əmsallarını qiymətləndirərək, ağıllı, müdrikcəsinə cavab verən uşağa təqdim edir. Nağıl bitəndən və təhlil olunandan sonra kitabxanaçı uşaqlarla fiziki elementlərlə dolu psixoloji oyun aparır.

Nağıl otağında hər dəfə bir ölkənin yazıçısı, nağılı haqda məlumat verilir. Məlumatlar daha çox konkret, uşaqlar üçün maraqlı faktlar əsasında toplanmalıdır. Məsələn, "Yapon xalq nağılları" kitabı üzrə ilk növbədə kitabxanaçı həmin dövlətlə bağlı maraqlı məlumatlar verməli, onların bildikləri cizgi filmlərinin adlarını çəkməli, sonra isə nağılı oxumalıdır. Növbəti dərsdə "**Yaponiya – möcüzələr diyarı haqqında nə bilirik**?- adlı uşaqlar arasında diskussiya aparmaq olar. (Məsələn: Yaponiya (Şərqi Asiyadakı arxipelaqda yerləşən və 6852 adadan ibarət olan dövlət: dörd böyük adası - Hokkaydo, Hönsü, Sikoku və Küsü; eləcə də kiçik adaları. Paytaxtı 1868-ci ildən Tokio şəhəridir. Dövlət quruluşu konstitusiyalı monarxiyadır. Ölkə konstitusiyası 1947-ci ildə qəbul olunmuşdur. Daimi hərbi qüvvəsi yoxdur. Əhalinin sayına görə Yaponiya dünyanın birinci on ölkəsi sırasına daxildir) Belə diskussiyaların köməyi ilə uşaqlar həmin ölkələr haqqında danışmaqla dünyagörüşlərini inkişaf etdirəcək, maraqlı məlumatlar əldə edəcəklər.

"Yaponiya möcüzələr diyarı haqqında nə bilirik?" adlı rəsm, əl işləri müsabiqəsi keçirmək olar. Müsabiqədə oxucular bildiklərini şəkil, kollaj, aplikasiya və s.formada təqdim edirlər. Onlardan ən yaxşıları seçilərək müsabiqənin qalibi olmaqla mükafat əldə edir. Müsabiqədə 5-15 yaş arasında uşaqlar iştirak edir.

Müsabiqənin şərtlərindən ən başlıcası odur ki, yaradıcılıq işləri öz fərdiliyi, orijinallığı ilə seçilməlidir və **Sən Yaponiyanı necə görürsən?** sualını iştirakçı tam əhatə etməlidir.

Belə təcrübədən regionlarda yerləşən MKS-in uşaq şöbələrində və filliallarında da istifadə etmək olar. Kəndlərdə üç –dörd otaqdan ibarət kitabxananın bir otağını nağıl otağına çevirmək olar. Burada sırf uşaqlar üçün ədəbiyyat toplanır, yerdə xalça, kilim salınır. Nənənin sandığı, yun əyirən cəhrəsini, balaca döşəkçələri xalça üzərinə qoymaqla burada əsil nağıl saatı abı-havası yaratmaq olar. Döşəkçələrin üzü xırda parçalardan tikilmiş üzlüklə olsa daha maraqlı olar. Kənd kitabxanası nağıl saatında kənddə işləmiş, indi isə təqaüddə olan kitabxanaçını və ya həvəslə uşaqlara nağıl danışmaq istəyən nənəni dəvət edə bilərlər. Nağıl saatında nənə corab toxumaqla, yun əyirməklə və ya xalça, kilim toxumaqla, qurama tikməklə uşaqlara nağıl danışar. Nağıl otağında olan sandıqçanın içərisində uşaqların düzəltdikləri, toxuduqları nağıl qəhrəmanları yığılar. Nənə hər dəfə sandığı açanda bu işlərin kim tərəfindən hazırlanmasını digər oxuculara məlumat verər. Bu da uşaqları yaradıcılıq işlərinə daha çox həvəsləndirər. Həmçinin, onlar kitabxanadan istifadə qaydaları, elanlar ilə tanış olurlar. Balaca oxuculara kitabxananı sevdirmək, onlarda mütaliəyə maraq artırmaq  məqsədilə girişdə  kitab formasında taxta lövhənin üzərində kitab və ya mütaliə haqqında deyilmiş müdrik sözlər yazılmalıdır: "İnsan güc ilə yox, mütaliə etməklə ağıllanır" və s. Yazı rəngarəng gözəl və iri şriftlərlə verilməlidir.  Bu da kiçik yaşlı uşaqların gördüklərinin  təsiri altına düşməsi ilə ondarda ilk anlarda kitabxanaya maraq doğurur. Kitabxananın dizaynının burada cox böyük rolu vardır. Buna görə biz də Mərkəzi Kitabxana Sisteminin uşaq şöbələrinin tərtibatına fikir veriməli,  rəngarəng və uşaqların zövqünə uyğun, nağıl qəhrəmanlarının, cizgi filmlərinin şəkillərindən, oyuncaqlardan istifadə etməliyik. Çünki belə kitabxanaya daxil olan uşaqlar özlərini sanki sevdikləri nağıl qəhrəmanlarının əhatəsində hiss edər,  onların kitab oxumağa olan marağı daha da artar. Uşaqları mütaliəyə cəlb etmək üçün təkcə kitabxananın girişində deyil, eyni zamanda müvafiq otaqlarda da cəlbedici, mütaliə həvəsini artıra biləcək

dizaynın olması vacibdir. Belə ki, kitab rəfləri çox hündür olmamalı, daha çox uşaqların istifadə etdikləri kiçik həcmli kitablar xüsusi düzəldilmiş oyuncaq rəflərdə qoyulmaqla uşaqların kitablarla ünsiyyət qurmasına kömək edir.  Hər bir MKS-nin foyesində milli sərginin olması xüsusilə vacibdir. Milli dəyərlərimizin saxlanması və inkişaf etdirilməsi, nəsillərdən-nəsillərə ötürülməsi məqsədilə uşaqların özlərinin əl işlərinin sərgilənməsi kitab və kitabxananın sevdirməkdə mühüm rol oynayır. Belə sərgilərdə ulu öndərimizin sitatlarından ("Milli adət ənənələri qoruyub saxlamaq, yaşatmaq və onları gələcək nəsillərə dönə-dönə tövsiyə etmək hər birimizin borcu və vəzifəsidir") istifadə etməklə onun daha maraqlı və dolğun təşkilinə nail olarıq.

F.Köçərli adına Respublika Uşaq kitabxanasının iş təcrübəsindən bəhrələnərək bunları bilmək lazımdır: məktəbəqədər uşaqlarla işə kitabxanaya ekskursiyadan başlamaq lazımdır. Kitabxanaçı ilk dəfə kitabxanaya gələn bu sevimli oxucularda kitab dünyasını sevmək vərdişi aşılamaqla, onları gülərüzlə qarşılayır, kitabxanaya yeni yazılan uşaqlara kitabxananın hədiyyəsini- balaca bir kitab verir.





F.Köçərli adına Respublika Uşaq kitabxanasında hər il martın 1-dən 7-dək Köçərli həftəsi keçirilir. Həftə ərzində müsabiqələrdə, bədii qiraət gecəsində fərqlənən oxucular diploma layiq görülür, kitabxananın təsis etdiyi "Göy qurşağı" uşaq jurnalına bir il pulsuz abunə olur.
Uşaqlara mütaliə tərbiyəsini aşılamağı məhz uşaq baxçalarından başlamağınızı tövsiyə edərdik. Çünki qeyd etdiyimiz kimi müəyyən vərdişlərin insanlara kiçik yaşlarda aşılanması gələcəkdə daha səmərəli nəticələr verər. Belə ki, bu yaşda olan uşaqlar gördüklərini və eşitdiklərini daha yaxşı qavrayırlar. Elə bu səbəbdən də baxçalarda mütaliə təbliğinin həyata keçirilməsi məqsədə uyğundur. Baxça yaşlı uşaqlarda mütaliəyə həvəs yaratmaq məqsədilə azyaşlıların kitabxanalara ekskursiyasını təşkil etmək mümkündür. Ekskursiyaya kitabxana haqqında ətraflı məlumata malik olan kitabxanaçının rəhbərlik etməsi daha məqsədəuyğun olar. Belə ki, o uşaqların kitabxana ilə tanışlığı zamanı onları kitabxananın hər bir şöbəsi və onun funksiyası, nağıl otağı, kitabxananın faydaları haqqında məlumatladırmalı, dərnəklərlərdə çalışan uşaqların yaradıcılıq işlərini göstərməli, eyni zamanda kitabxanaya yeni daxil olan uşaq kitabları ilə tanış etməli, həmin kitabların məzmunu haqqında qısa, ancaq maraqlı məlumatlar verməlidir.

Digər tərəfdən də kitabxana işçiləri baxçalara gedərək uşaqları kitabxanalar haqqında məlumatlandıraraq onlarda kitaba qarşı sevgi yarada bilərlər. Belə ki, uşaqlar məktəbə getdikləri günü səbirsizliklə gözlədikləri kimi kitabxanalara üzv olub maraqlı kitabları oxuyacaqları günü də səbirsizliklə gözləməlidirlər. Çıxış zamanı kitabxanaçılar uşaqları inandırmalıdırlar ki, onların kitabxanaya üzv yazılması gələcəkdə onların yaxşı bir vətəndaş, vətənə, xalqa xeyirli bir övlad kimi yetişməsində mühüm rol oynayar. Kitabxanada bütün yaş qrupları nəzərə alınmaqla xidmət şöbəsi məlumat biblioqrafiya şöbəsi ilə birgə "Kitab dünyasına addımlar" adlı proqram hazırlayır. Həmin proqramda ədəbiyyat siyahıları müxtəlif

mövzularla yanaşı, məktəb proqramına kömək məqsədi də daşıyır. Proqramın hazırlanmasında baxça və məktəb müəllimlərinin fikirləri, tövsiyələri də nəzərə alınır. Bu da təkcə uşaqların deyil, kitabxanaçıların da uşaqlar üçün kitab seçməsində böyük rol oynayır.

Kitabxanaçılar yalnız uşaqları maarifləndirməklə kifayətlənməməli, eyni zamanda baxça müəllimləri ilə də söhbət aparmalı, kitabxana haqqında onları da məlumatlandırmalıdırlar. Söhbət zamanı onlar azyaşlılar üçün  hansı kitabların kitabxanada mövcudluğundan bəhs etməli, hansı kitabların uşaqlar üçün daha məqsədəuyğun olduğunu xüsusilə qeyd etməlidirlər.

Məktəbəqədər uşaqlarda, daha çox oxumağı bacarmayan uşaqlarda oxu vərdişlərini yaratmaq məqsədilə səhərciklər və ucadan oxuların keçirilməsi məqsədəuyğundur. Ucadan oxu üçün seçilən nağıl maraqlı və qısa olmalıdır ki, uşaqlarda fikir çaşqınlığı yaranmasın. Ucadan oxu üçün kitabxanaçı tərəfindən seçilən maraqlı nağıllar, hekayələr, şeirlər ibrətamiz və tərbiyəvi olmalıdır. Ucadan oxunun maraqlı təşkil olunması azyaşlılarda mütaliəyə həvəs yaradar, onların tez bir zamanda əlifbanı öyrənmək, kitab oxumaq istəyini də artırır. Bu məqsədlə kitabxanalarda kiçik həcmli nümunələrin ucadan oxusunu keçirmək yaxşı olar. Xüsusilə ucadan oxu "Nağıl otağı"nda keçiriləndə bu balacalar üçün daha maraqlı olur. Belə ki, onlar diskli nağılların köməyi ilə kitablarda şəkillərə baxır, aktyor ifasında səslənən nağılı dinləyir. Ucadan oxu zamanı oyuncaq kitablardan, pazl-kitablardan da istifadə etmək olar. Məsələn: "Keçəlin nağılı" pazl kitabından nağılı oxuyandan sonra uşaqlar həmin kitabın pazllarını özləri sərbəst şəkildə qura bilirlər. Bu da onlarda məntiqi qabilliyətin, düşüncənin inkişaf etməsində böyük rol oynanır.




Uşaqların diqqətini cəlb etmək kitabxanaçıdan əsl aktyor bacarığı tələb edir. Belə ki, o oxuduğu nağılların və hekayələrin qəhrəmanlarının keçirdiyi hiss və həyəcanı müxtəlif səs tonları, hərəkətləri və intonasiya ilə balaca oxuculara çatdırmaqla mütaliə olunan kitaba daha çox maraq yaratmış olur.

İstər azyaşlı məktəblilər, istərsə də baxça uşaqları üçün səhərciklərin keçirilməsi uşaqların mütaliəyə həvəsini artırır. İbtidai sinif şagirdləri, eyni zamanda baxça uşaqları ilə "Turp", "Cırtdan", "Şir və siçan", "Cik-Cik xanım", "Xoruz" və digər nağılların səhərciklərini hazırlamaq olar.

Məktəb şagirdlərinə mütaliə vərdişləri aşılanarkən onlara göstərilən qayğı baxça uşaqlarına olan qayğıdan tamamilə fərqlənməlidir. Məktəb şagirdləri arasında mütaliəni uşaqlara sevdirmək məqsədilə kitabxana işçilərinin məktəblərdə uşaqlarla, müəllimlərlə və valideynlərlə iş aparması olduqca mühüm bir amildir. Belə ki, uşaqlara hətta kitabxananın yerləşdiyi ünvan, məktəbin yerləşdiyi ərazidən oraya necə getməyin yolları belə izah olunmalıdır. Kitabxanaçılar təkcə şagirdləri maarifləndirməklə kifayətlənməməli, eyni zamanda valideynlərlə və müəllimlərlə də iş aparmalıdırlar. Məktəb şagirdlərini kitabxanalara cəlb etməyin əsas yollarından biri də onların valideynləri ilə söhbət aparmaqdan asılıdır. Kitabxanaçıların məktəblərdə və baxçalarda valideynlərlə görüş təşkil etməsi yaxşı nəticələr doğurur. Görüş zamanı kitabxanaya yeni daxil olan ədəbiyyatdan, uşaqların düzgün yetişməsi üçün mütaliənin onların

həyatında oynadığı roldan söhbət açılmalı, onlara kitabxananın bələdçisini, vizit kartını vermək məsləhətdir.

Kitabxananın abonement şöbəsində maraqlı, fərqli kitab sərgiləri təşkil etmək olar: “Kitabxanaçının tövsiyə etdiyi kitabları oxuyun” və s.

Hər bir kitab rəfində düzülmüş kitabların altında kitabxanaçı öz adını, soyadını yazır. Tövsiyə olunan kitabların içində anket forması qoyulur ki, anketin yalnız iki bəndi oxucu tərəfindən doldurulur: kitab haqqında fikir və mülahizələrin və kitabı öz dostuna oxumağı məsləhət görərsənmi? Sərgi rəflərindən kitab seçib götürən oxucular mütaliə etdikləri kitabla bağlı artıq özlərinə həmsöhbət tapmaqla yanaşı, həmçinin ona kitabı tövsiyə edən kitabxanaçı ilə fikir mübadiləsi edir, rəylərini bildirir. Belə kitab sərgilərinin də kitabxanaya oxucu cəlbində çox böyük köməyi olur.

Kitabxana imicinin artmasında, kitaba və kitabxanaya marağın artması ilə əlaqədar aşagıdakı təkliflərimizi edirik:

1.Məktəblərdə kitabxana dərslərinə ayrıca saat ayrılsın və müəllimlər bu dərsi məhz kitabxanada keçsinlər

2. Uşaq ədəbiyyatı portalı yaradılsın

3. Müasir dünya uşaq ədəbiyyatı nümunələrinin tərcüməsi, nəşri

4. MKS-in uşaq şöbələrində ailəvi abonement işi inkişaf etdirilsin

5. Oxucular arasında vətənpərvərlik, hüquq, ekoloji və s. tərbiyələr üzrə sosioloji sorğular aparılsın

5. Regionlarda kitabxanalar yay mövsümündə turizm istirahət zonaları ilə müqavilə bağlasınlar, orada səyyar kitabxana təşkil etsinlər

6. Çay evlərində, marketlərin kafeteriyalarında balaca bir kitab dolabı qoymaq.  Eləcə də onlar arasında sorğu keçirmək olar ki, hansı kitabı oxumaq istəyirlər və s.

7. Radionun səhər verilişlərindən birində kitablarla bağlı oyun keçirilsə mütaliə mədəniyyətinin yüksəlməsinə səbəb olar.

Bütün bunlar bir daha kitab, kitabxana, kitabxanaçı imicinin artmasına xidmət edər.

## II Uşaqlarda mütaliə mədəniyyətinin aşılanması

Mütaliə hər bir insanın şəxsiyyət kimi formalaşmasında böyük rol oynayır. Belə ki, insan mütaliə edərək öz dünyagörüşünü, biliklərini, həyat təcrübəsini, mənəviyyatını, nitq qabiliyyətini daha da artırır. Uşaqlarda mütaliə vərdişlərinin erkən yaşlarda aşılanması olduqca vacib amillərdən biridir. Çünki çox mütaliə edən uşaqların intellekti daha sürətlə inkişaf edir. İki mərtəbədən ibarət olan Mərkəzi Kitabxana Sisteminin binasının vestibülündə uşaqlar üçün nağıl otağı təşkil etmək olar. Nağıl saatı üçün müəyyən günlər təyin etməklə, onları mütaliəyə cəlb etmək olar.

***Litva Milli Uşaq Ədəbiyyatı Mərkəzinə səyahət***

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşları 2013-cü ilin noyabrında Litva Milli Uşaq Ədəbiyyatı Mərkəzində olmuşdur. Onların iş təcrübəsindən çıxış edərək demək olar ki, həmin kitabxanada





kitabxanaçılar nağıl qəhrəmanlarının paltarını geyinib, nağıl saatına gələn oxucuları qarşılayaraq onları ikinci mərtəbədə yerləşən nağıl otağına aparırlar. Bəzən kitabxanaçılar elə qrimlənirlər ki, oxucular onların kitabxanaçı olduğunu belə bilmir.

Şəkildə gördüyünüz kimi,  uşaqlar ilk dəfə kitabxanaya qədəm qoyanda onları nağıl qəhrəmanları salamlayır. Sonra isə balacalar kitabxananı gəzib tanış olur, abonement, oxu zalından istifadə edirlər.

Litva Uşaq Ədəbiyyatı Mərkəzində olarkən, biz kənd kitabxanalarında da olduq. Litvanın Uşpaley kənd kitabxanasında olduğumuz vaxtda əl işləri müsabiqəsi ilə bağlı tədbir  gözlənilirdi: **İstifadəsiz kişi qalstuklarından nə düzəltmək olar?**  Təxminən 30-a yaxın əl işləri pərdə altında lövhədən asılmışdı. Çox maraqlı güllər, başa taxmaq üçün çalma, kəmər və s. düzəldilmişdi. Kənd icra nümayəndəliyi biz kitabxananı tərk edəndə əlində böyük bir bağlama kitab, digər hədiyyələrlə kitabxanaya daxil oldu. Kitabxanada uşaqlarla tolerantlıq, diyarşünaslıqla bağlı çox maraqlı işlər görülür. Biz onlardan bu birləşmənin mənfi və müsbət cəhətlərini soruşduq. Kənd kitabxanasında işləyən cavab verdi ki, əvvəllər mənim işim çox sakit şəkildə olurdu, indi isə məktəb kitabxanasında səs-küy, zəngin səsi və s. bunlara öyrəşmək lazımdır. Amma istifadəçilərin sayı çoxdur. Bu da tədbirlərin maraqlı, yəni onların maraqlarına uyğun şəkildə keçirməyimizdən asılıdır. Kitabxanadan uşaqları ilə bərabər valideynlər də iştirak edirlər. Tamamilə tənha qocalar üçün xüsusi günlərdə, yəni bazar günləri bələdiyyənin köməyi ilə tədbirlər təşkil edirik. Onlara internetdən istifadə qaydaları, yaxınları ilə əlaqə qurmaq imkanı, banka getmədən kommunal xərclərin (işıq, telefon, su və s.)ödənilməsi kimi xidmətləri həyata keçiririk. Kitabxanada uşaqlar üçün Barmaqcıqlı və kukla teatrı fəaliyyət göstərir. Teatr personajlarını uşaqlar və valideynlər hazırlayır. Uşaqların mütaliəsi üçün hər bir şərait vardır.






Balaca oxu zalında 3 kompüter uşaqlara xidmət üçün yerləşdirilmişdir. Kitabxanaya daxil olanda internetin pulsuz olması, WI-FI olması barədə hər bir oxucuya məlumat verilir.




"Kitabxanaya kitablar hədiyyə etsən, bu kitabları gələcəkdə özünə hədiyyə etmiş olarsan" yazısı altında kitablar toplanaraq ucqarlarda yerləşən kitabxanalara hədiyyə edilir.

Litva Uşaq Ədəbiyyatı Mərkəzində apardığımız müşahidələrdən məlum oldu ki, oxucu və mütaliə problemini Elektron kitabxana, kütləvi tədbirlər və yaradıcılıq dərnəkləri, görkəmli şəxslərlə maraqlı görüşlər, ən əsası isə kitabxanaların yeni nəşr olunan uşaq ədəbiyyatı, cari nəşrlərlə mütamadi olaraq təchiz olunması yolu ilə aradan qaldırmaq mümkündür.

Yuxarı sinif şagirdlərinin, xüsusilə yeniyetmələrin kitabxanadan az istifadə etməsi və yaxud heç istifadə etməməsi məqsədilə ilə apardığımız monitorinqlərə, müxtəlif rəy sorğularına əsasən nəticələri təhlil edərkən aşağıdakıları müəyyənləşdirməyə bizə imkan verdi:

Uşaqların və yeniyetmələrin ədəbiyyata marağı azalmışdır, asudə vaxtlarda oxunan mütaliənin səviyyəsi aşağı enmişdir;

Mütaliə fərdi və  səthi xarakter daşımağa başlamışdır;

Ancaq məktəb proqramı üzrə kitab oxuyan uşaqların sayı artmışdır;

Əyləncə xarakterli mütaliəyə daha çox üstünlük verilməlidir;

Aşağı səviyyəli kütləvi informasiyanın təsiri özünü göstərir;

Jurnallar, qəzetlər  kitablara nisbətən daha çox mütaliə edilir;

Klassiklər, xarici və yerli yazıçıların əsərlərinə maraq azalmışdır. Bütün bunlara modernləşdirmə ilə bağlı  xarakterik iqtisadi  problemlər də əlavə olunmuş və kiçik yaşlı uşaqların və yeniyetmələrin  inkişafına  öz təsirini göstərmişdir.

Bütün kitabxanalar sosioloji obyekt kimi daim uşaqların mütaliəsində yeniliklər etməli, qarşıda duran maneləri vaxtında aradan qaldırmalıdırlar. Həmçinin uşaq şöbələrində aliləvi oxu abonementinin daha da maraqlı olması üçün mütləq valideyn, hüquq mərkəzləri yaradılmalıdır. Kitabxanalar icra nümayəndəliyindən ərazisində olan əlillərin ünvanlarını, təhsil aldıqları məkanları öyrənməklə onlara kitabxana xidməti göstərməlidirlər. Əlillərlə işləyən kitabxanaçılar müəyyən tədbirlərə, məsələn əl işləri, rəsm və inşa, esse müsabiqələrinə onları cəlb etməlidirlər. Hər bir kitabxanaçı əlillərlə işləmək üçün kitabxanada müvafiq şəraiti yaratmalıdırlar.

## Oxucuların informasiya mədəniyyəti

İnsan zəkası da kainat kimi nəhayətsizdir, sonsuzdur. Zaman-zaman sərhədlərini genişləndirir, yeni-yeni üfüqlərə can atır. Dünən əlçatmaz görünən arzuları, xəyalları əsrlər keçdikcə insan zəkası pillə-pillə, addım-addım gerçəkliyə çevirir; dünənki möcüzə bu gün adiləşir. Elə buna görə də biz: “Dünyanın ən böyük möcüzəsi insan zəkasıdır” - deyəndə, səhv etmərik. Çünki o durmadan inkişaf edir.

Kitabxanaların avtomatlaşdırılması kitabxana-biblioqrafiya proseslərinin inkişafı və oxucuların bu prosesdə lazımınca bəhrələnməsi deməkdir və bu proses istər kitabxanaçıların istərsə də kitabxanadan istifadə edən oxucuların işini asanlaşdırır. İlk növbədə bu iş Elektron kataloqun (EK) yaradılmasından başlayır. Bu sistemin tətbiqi kitabxana işçilərinin kompüter savadlılığını bir daha təkmilləşdirir. Ona görə də 2005-ci ildən F.Köçərli adına Respublika Uşaq Kitabxanasında İRBİS-64 avtomatlaşdırılmış proqram sistemi qoyulanda hər bir kitabxana işçisi təlimlərdə iştirak edərək sistemdə işləmək üçün hazırlandı. Avtomatlaşdırılmış kitabxana İnformasiya sisteminin "İnzibatçı" "Kataloqlaşdırıcı" və "Oxucu" avtomatlaşdırılmış işçi yerlərinin tətbiqi kitabxananın informasiyaşma işini daha da sürətləndirdi. Bu proqram Mədəniyyət və Turizm Nazirliyi tərəfindən dəstəkləndi, bu sahədə yeniliklərin tətbiqi ilə bağlı böyük işlər görüldü. Hazırda kitabxana fondunun 70%-dən çox hissəsi elektron kataloqa daxil olmuşdur. Kitabxana işinin avtomatlaşdırılması sahəsində bir sıra uğurlu layihələrin həyata keçməsində daha maraqlıdır, bunun oxucu cəlbində əhəmiyyətini daim hiss edir.

Müasir elm, elə müasir dünya bütünlükdə informasiya mübadiləsi aparmadan keçinə bilmir. Daha dəqiq desək, bu gün elmin vüsətini də, sürətli inkişafını da informasiya mübadiləsi təmin edir. Bu gün təkcə alimlər yox, hər bir adi insan dünyanın ən ucqar yerində oturub kompüterini İnternet şəbəkəsinə qoşmaqla maraqlandığı sahə ilə bağlı külli miqdarda informasiya əldə edə bilər. Eləcə də İnternet sistemi vasitəsilə hər hansı bir məlumatı qısa müddətdə istənilən məntəqəyə ötürə bilər. Beləliklə, bu gün düşünən dünyada, əgər belə demək mümkünsə, vahid "ailə"yə çevirmiş müasir bir elm mövcuddur. Bu elmin adı "İnformatika" dır.



2005-ci ildən başlayaraq artıq neçə illərdir ki, kitabxanamız “Biləyən ” multimedia zalında ümumi məcburi ibtidai təhsil formasında kitabxana-biblioqrafiya biliklərinin əsasları proqramı ilə işləyir. Buna uyğun olaraq şagirdlər kataloq və kartotekalarla, kitablar, dövri və soraq nəşrləri ilə işləmək bacarıqlarını əldə edirlər. Elektron kataloqların və kartotekaların yaradılması, bu proqramda yeni bazaları əlavə etmək cəhdləri proqramdan istifadənin artmasına, virtual oxucuların sayının çoxalmasına gətirib çıxardı. Bu - müasir texniki vasitələrdən istifadə etməklə onun yerindən asılı olmayaraq istənilən növdə lazımlı informasiyanı tapmaq bacarığıdır. Kitabxanada maraqlı mövzular üzrə informasiya saatları və dərsləri keçirildi. Məsələn "Kitabxanada kompüterlə ilk tanışlıq", "Uşaq kitabxanasında Elektron kataloq və kartotekalar", "Ensiklopediyanın Elektron multimediaları", "Axtarışın təşkili və metodları", "Elektron referatlar" və s. Qruplar üzrə məşğələlərdə oxucular yeni məlumat daşıyıcılarıyla tanış olmaqla yanaşı, onun axtarışı metodlarını da öyrəndilər, İnternetdə düzgün axtarış etməklə əlavə bilik əldə etdilər.

Oxucuların informasiya mədəniyyəti tədricən belə formalaşır: informasiyanın düzgün axtarışı, onun əldə edəndən sonra ədəbiyyatı oxumaq bacarığı, informasiyanın qiymətləndirilməsi, yaradıcılıq işi və s.

Oxucunun informasiya savadlılığı kitabxanada saxlanılan sənədlərin tipləri haqqında biliklərin əldə edilməsi ilə yanaşı, lazımlı mənbələrin sərbəst axtarışı və kitabxana fondlarının effektiv istifadəsinə kömək edir.

İnternetlə işə daha çox diqqət ayrılır. İstifadəçilərə İnternet haqqında məlumat verməklə yanaşı etiket qaydaları da öyrədilir.

Tədris prosesində  multimediaların imkanlarından istifadə. Müxtəlif mövzular üzrə təqdimatların, carxlı slaydların hazırlanması və s.

Təcrübə göstərir ki, bütün bunlar yeni biliklər əldə etməklə yanaşı, məktəblilərdə bilik və bacarıqları formalaşdırır, intellektual qabiliyyətlərini inkişaf etdirir. Bu məsələlərin həllində böyük imkanlar bizə multimedialarin vasitəsi ilə verilir. Belə ki, insan obrazlarla düşünür, təqdiqatçıların fikrincə hər bir insan10 % oxuduqlarını,  20% eşitdiklərini və 30 % gördüklərini və eyni zamanda görüb və eşitdiklərinin  50-70%.-ni  yadda saxlayır,

Kitabxanalarda yaradılmış  Multimedia mərkəzləri  audio və video məhsullarından  başqa uşaqlar üçün  ensiklopediyalar və öyrədici proqramlar əsasında hazırlanmış disklərlə təmin olunmalıdır. Bu fond oxucuların maarifləndirici fəaliyyətinin dəstəyi üçün istifadə olunmaqla kitabxanada istifadəçilərin əlavə təlimatlanmasında böyük rol oynayır.

CD-lərdə olan tədris materilallarından Məs: informatika, tarix, incəsənət, müsiqi və s. geniş istifadə olunur.

Tarix dərsliyi ilə əlaqədar müxtəlif dövrləri əhatə edən ensiklopediyalar: Tarix – qədim dövr, Azərbaycan tarixi,  Tarix. XX əsr; Riyaziyyat, fizika, coğrafiya, rus və ingilis dilləri üzrə  öyrədici proqramlar; informatika kurslarının dərindən öyrədilməsi baxımından  multimedia öyrədən proqramlar ; Addım-addım; Windows2010; Internet və s.

Kitabxana məktəb proqramına köməklə əlaqədar uşağın ümumi mədəniyyətinin formalaşması üzrə iş aparır, əlavə təhsil proqramları üzrə aktiv mədəni sahənin yaradılmasına nail olur. Məsələn: "İnformasiya texnologiyaları", "Nitq . Mədəniyyət. Ünsiyyət", "Rənglərin, fikirlərin və hislərin ahəngində".

Kitabxanada uşağın məntiqi düşüncəsi, onun yaradıcılıq qabiliyyətini inkişaf etdirmək məqsədilə müxtəlif interiaktiv oyunları özündə əhatə edən disklərin, flashkartların olması da nəzərdə tutulur. Belə proqramlar oyun formasında yerinə yetirilir. Multimedia mərkəzində interaktiv nağıllar, cizgi

filmlərinin də olması vacibdir.  Belə nəşrlərdən:  “Tıq-Tıq xanım”, “Cırtdan və div”, “Tülkü həccə gedir”, “Qız qalası” və s. Bu filmlərin köməyi ilə uşaqlar sevimli qəhrəmanlarına labirintdən çıxmağa kömək edir, riyazi və ya məntiqi məsələləri həll edir, oxu texnikasını təkmilləşdirmək üçün qaçan sətrin imkanlarından istifadə edirlər.

**Kompüter və uşaq yaradıcılığı.**

Uşaqlar kitabxana tədbirlərində iştirak etməklə ən yaxşı video çarxlı slaydın hazırlanmasına müsabiqəsinin qalibinə çevrilirlər. Həmçinin məktəblərdə onlara tapşırılan referatların və məruzələrin hazırlığı və rəsmiləşdirməsi, kompüter qrafikası və başqa yaradıcılıq işlərinin hazırlanması bacarığına yiyələnirlər.

Ən yaxşı uşaq yaradıcılıq kompüter işləri müsabiqələrdə diqqətə çəkilir, hədiyyələr, diplomlar verilir.

Özlərinin tərtib etdikləri “sevimli kitablar”  sərgilərdə nümayiş olunur, müxtəlif mövzular üzrə  hazırlanmış təqdimatlar kitabxananın saytına daxil edilir.

## III. Valideynlər və uşaq mütaliəsinə rəhbərlik edənlərlə iş

Uşaqları mütaliəyə cəlb etmək və kitabla necə rəftar etmək barədə də oxu zallarında divara vurulmuş belə plakatlardan istifadə etmək olar:

**“ Kitabları uzun ömürlü edək “**

**( *kitabsevərlərin devizi* )**

*Kitabsevərlərin kitabla rəftarı:*

Kitabı təmiz və quru əllə götürürlər

Səhifələrini yavaşca vərəqləyib baxırlar

Vacib bildikləri yerə əlfəcinlər qoyurlar

Müxtəlif frazaları sadə karandaşla qeyd edib, sonra pozanla yavaşca pozurlar

Oxuduqları haqqında dostları ilə bölüşürlər

Kitabdan lazım olan şəkil və sxemləri surətçıxarma aparatının köməyi ilə əldə

edirlər.

Lazım olan mətni konspektləşdirib yazırlar

Oxuyub qurtarandan sonra kitabı yerinə qoyurlar

Kitablar kitab rəfində və ya kitab dolabında saxlanılır

Başqa yerə aparanda çantaya və ya sellofan torbaya qoyurlar.



Ulu öndər, ümummilli lider Heydər Əliyevin uşaqların sağlamlığı, onların yaxşı təlim və tərbiyə görməsi, vətənə və xalqa gərəkli övlad olaraq yetişməsi üçün gördüyü işlər bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Nəzərə almaq lazımdır ki, bu gün Heydər Əliyev Fondunun uşaqlara göstərdiyi qayğı, bu sahədə gördüyü işlər cəmiyyətdə müsbət dəyərləndirilir. Hər zaman söylədiyim fikri bir daha təkrar edərək, demək istəyirəm ki, cəmiyyətdə, ictimaiyyətdə və şübhəsiz ki, ailələrdə uşaqlara olan münasibət yenilənməlidir.

Valideynlərin kitabxanaçılar tərəfindən maarifləndirilməsi olduqca mühüm amildir. Belə ki, valideynlərlə söhbət zamanı onlara bildirmək lazımdır ki, uşaqları mütaliəyə məcbur etməsinlər. Əksinə onlarda mütaliəyə  maraq yaratsınlar. Çünki uşaq psixologiyası elədir ki, uşaqlar onları nəyəsə məcbur etdikdə ondan daha da uzaqlaşırlar. Bilirik ki, uşaqlar çox vaxt böyüklərin etdikləri hərəkətləri təkrar etməyə çalışırlar. Elə bu səbəbdən də valideynlər boş vaxtlarında mütaliəyə vaxt ayırmalıdırlar. Onlar özləri mütaliə etməklə yanaşı uşaqları üçün də kiçik həcmli nağılları ucadan oxumalı, balacalarda mütaliəyə həvəs yaratmalıdırlar. Mütaliə uşaqların cəmiyyətə daha  yaxşı adabtasiyasına kömək edir. Hər bir valideyn ilk növbədə övladlarının oxuması üçün internetə yox, daha çox

kitabxanadan istifadə etməklə kitab, jurnal və qəzet almağa üstünlük verməlidirlər. Mütaliə mütləq vacibdir. Hər bir uşaq yaşından asılı olmayaraq oxumağa hazırlanmalıdır. Uşaqlar ana bətnindən oxumağa eşitməyə hazırlanmalıdır. Deyək ki, bir uşaq 4-5 ci sinifdə oxuyur, savadlıdır, zəkası əladır, amma oxumaq istəmir, ya da oxuyur amma dərsi danışa bilmir, bu bilirsiz nədən irəli gəlir, çünki uşaq bir başa kitabla kontaktda olmayıb, birbaşa jurnal oxumayıb.

Bu məqsədlə kitabxananın kiçik oxu zalında valideyn guşəsinin olması məsləhətdir. Belə guşədə kitab, jurnallarla yanışı tövsiyələr də diqqətə çəkilə bilər. Məsələn, **"Uşaqlarınızı necə mütaliəyə cəlb edə bilərsiniz"**

1.Hələ uşağınız dil açmamış ona kitab oxumağa başlayın. Əsasən "yeməkdən sonra" və "axşam yatanda oxu" yolunu tutun.

2. Çalışın ki, seçdiyiniz kitablar kiçik həcmli – dili axıcı, sözləri sadə, qısa cümlələr və coxlu dialoqlarla olsun. Həm də uşağınızın marağına uyğun olsun. Məsələn, dinozavrlar, pişik və ya it.

3. Uşağınıza, hətta o özü artıq oxusa da belə, kitab oxumağa davam edin. Yaxşı olar ki, mütaliə zamanı maraqlı bir yerdə dayanasınız və gedəsiniz. Sonra isə gəlib uşaqdan soruşun: "De görüm, harda qaldım?"

4. Öz sevimli kitabınızı ona sevdirməyə çalışmayın. Yaxşı olar ki, həmin kitabı diqqət mərkəzində saxlayasınız.

5. Tez-tez uşaqlarınızı kitabxanaya, böyük kitab mağazalarına aparın. Onların hansı kitablara marağı olduğuna fikir verin.

6. Hətta oyun oynamağı kitab oxumaqdan daha çox sevirsə, qoy heç olmasa oyunun qaydalarını özü oxusun. Kompüter oyunları haqqında maraqlı kitablar tapın ki, oxusun.

7. Yataqda oxumaq o qədər yaxşı olmasa belə, kitab oxumağa icazə verin. Uşağınıza deyin ki, yatağa müəyyən bir vaxtda uzanmalıdır: 20:30-da

ya yatmalı, ya da kitab oxumalısan. Çox vaxt uşaqlar yatmaq əvəzinə kitab oxumağı üstün tuturlar.

8. Uşaqlarınızın oxumaq istədikləri kitabları heç vaxt əlçatmaz yerə qoymayın. Qoy kitablar onların olduqları hər bir yerdə olsunlar ki, müəyyən vaxt tapanda oxuya bilsinlər.

9.Uşaqlarınızı kitabı axıra qədər oxumadığı üçün cəzalandırmayın, ola bilsin ki, həmin kitab onun üçün maraqlı olmasın. Həm də soruşmayın ki, başa düşmüsən, xoşuna nə gəldi? və s.

10. Ən vacib və əsas yol: nümunə olmaq. Evdə televizor qarşısında seriallara baxmaq əvəzinə mütaliə ilə məşğul olun. Uşaq görsün ki, mütaliə sizin xoşunuza gəlir. Onda uşaqda sizin oxuduğunuz kitabla maraqlanmaq həvəsi oyanacaqdır.

Valideynlər üçün təşkil olunmuş kitab sərgilərində onların maraqlarına uyğun kitablarla yanaşı, rəfdə belə bir bölmə vermək olar: bu kitabları uşaqlarınıza oxuyun. Kitabları balacalara sevdirmək məqsədilə tövsiyə olunan kitablarda yaş qrupları nəzərə alınmalıdır. Sərgidə hətta kitabxananın abonement şöbəsində olmayan kitabların əldə edilməsi üçün nəşriyyatın vizit kartını da valideynlərin diqqətinə çatdırmaq olar. Bəzən valideynlər vaxt qıtlığı baxımından kitabları evdə oxumağa üstünlük verirlər. Belə olan halda nəşriyyatların, kitab mağazalarının vizit kartları onların köməyinə gələr. Kitabxanaçı valideynlərə sərgidəki kitablar haqqında da ətraflı məlumat verməli və onları inandırmalıdırlar ki, siz özünüz mütaliə etsəniz, uşağınız da sizə baxıb mütaliə edər. Söhbət zamanı bu məlumatları onlara vermək olar:



“Kitab oxumağın insan psixologiyasına və səhhətinə bir sıra müsbət təsirləri var. Kitab oxuyarkən ürək döyüntüsü normallaşır. Kitab oxumağın orqanizmə faydasını araşdıran britaniyalı mütəxəssislər də maraqlı nəticələr əldə ediblər. Onların qənaətinə görə, cəmi 6 dəqiqə kitab oxumaq insanda stresin səviyyəsini üç dəfə azaldır. Başqa üsullarla müqayisədə kitab oxumaq insanı daha tez sakitləşdirir və yüngülləşdirir. Sahib olduqları məlumatların yarıdan çoxunu oxumaqla əldə edən insan hər zaman yuxarıda qeyd olunmuş avantajların bir çoxuna sahib olmaqla bunlardan məharətli şəkildə istifadə etmiş, düşüncə, bacarıq və iş baxımından digərlərindən də fərqlənmiş olur. Oxuyaraq bir çox şeyin əslini öyrənən insanda eyni zamanda özünə inam olur, qətiyyətsizlikdən uzaq olur. Çox kitab oxuyan insan zəngin söz ehtiyatına sahib olmağın təsiri ilə gözəl nitq qabiliyyətinə malik olur, danışarkən hikmət dolu sözlərlə insanların ürəyinə asanlıqla yol tapa bilir. Bu da insanlarla münasibətini mükəmməlləşdirir, ictimaiyyətdə aktiv rol oynayan birinə çevirir. Zəngin söz ehtiyatına sahib olmağın başqa bir xüsusiyyəti isə sahibinə daha geniş düşünmə imkanı verməsidir.

Mütaliə üçün vaxt məsələsi əsas əhəmiyyət kəsb edən amildir. Nədənsə asudə vaxtının demək olar ki, çoxunu mənasız şeylərə sərf edən insan

həmin vaxtın hər gün bir saatını mütaliəyə ayırmır. İşdən evə dönərkən evdə olan boş zamanı adətən televiziya verilişlərinə baxmaqla keçirən insan bu vaxtınının heç olmasa bir saatını kitab oxumağa ayırsa, bir çox müsbət keyfiyyətlər qazanmaqla yanaşı vaxtını dəyərləndirmiş olar. Ya da İnternet klublarda, kompüter arxasında, kafelərdə, əyləncə məkanlarında və başqa yerlərdə vaxtlarını keçirən gənclər bu vaxtlarının üçdə birini kitabxanalarda keçirsələr və kitab oxumağa ayrısalar cəmiyyətin ümumi düşüncə səviyyəsi yüksələr və geri qalan cəmiyyətlər sırasında olmaqdan qurtulmuş olar.
Kitab oxumağı alışqanlıq halına gətirmiş insanlar bunun üçün xüsusi vaxt ayırmaz hər fürsəti dəyərləndirərlər. Yol gedərkən, birini gözləyərkən, səyahətə çıxarkən və mümkün olan hər vəziyyətdə oxuyacağı kitabı yanından ayırmazlar.
Kitab oxuma alışqanlıq insanda tərbiyəvi bir xüsusiyyətdir. Bir çox məsələ kimi bu da insanda kiçik yaşlarından, hətta, bəzi alimlərə görə ana bətnindən başlayır. Uşaqlar anlamasalar belə valideyinlərin onların yanında uca səslə kitab oxuması körpələrdə kitablara sevgi yaradır. Xüsusən də uşaq zehninin ən intensiv dövrü sayılan üç-altı yaşlar arasında bunu etmək, təqdirə layiq bir addımdır.”

Oxuyanın mənəvi inkişafına fayda verəcək kitablar eyni zamanda onun vəsvəsəyə qapılmasını və ümidsizliyə düşməsinin qarşısını alır. Unudulmamalıdır ki, kitablar fikir müharibəsinin silahlarıdır. Oxuyan və oxuduğunu yaxşı dəyərləndirməyi bacaran insan hər zaman öndədir, fərqlidir, mübahisə və müzakirə bacarığı yaxşı olan biridir...



Bir çox valideynlər övladlarının qətiyyən kitaba yaxın gəlmək istəmədiyindən şikayətlənirlər. Onlar heç cür başa düşmürlər ki, bu nədən irəli gəlir. Axı həm kitabın özü, həm də şəkilləri çox maraqlıdır!

Belə rəftarın çox sadə səbəbi vardır: uşaqlar sadəcə olaraq onlarda rahat alınan şeyləri xoşlayırlar və özlərini zəhmətə salmaq istəmirlər. Tez bir zamanda sürətli mütaliəyə alışmaq hər uşaqda alınmadığından, əziyyətlə hərfləri sözlərə bir-bir əlavə etməkdənsə, onlar rahatca televizor və kompüter qarşısında əyləşməyə üstünlük verirlər. Axı burada hər şey rahat anlaşılır və aydındır. Kitabda isə oxuyana qədər, maraqlı yerə çatana qədər...

Öz uşaqlarında mütaliə sevgisi yaradacaqlarına ümidlərini itirməmiş valideynlər mütəxəssislərin, kitabxanaçıların məsləhətlərinə qulaq asmalıdırlar. Biz kitabxanaçılar məsləhət görürük ki, əsas kitabın oxunma müddətinin uzun olması deyil, mütəmadiliyidir. Yəni mütaliə uzun müddətli yox, qısa fasilələrlə və tez-tez olmalıdır. Çünki insan yaddaşı uzun müddət gözün qarşısında duran məlumatı yox, gözün önündən çəkilən və yenidən görünən məlumatı daha yaxşı yadda saxlayır. Övladınıza sürətli mütaliəni öyrətmək üçün onunla kiçik fasilələrlə (bir məşğələni 5 dəqiqəlik hissələrə

bölərək) məşğul olun. Onu iki saat ardıcıl olaraq kitab arxasında oturmağa vadar etməyin.

Çox vaxt valideynlər televizor və kompüterin rolunu düzgün qiymətləndirmirlər. Onlar belə hesab edirlər ki, bu əşyalar öz işlərini görüblər və uşağın oxumaq həvəsini həmişəlik öldürüblər. Valideynlər belə düşünərək uşaqlarında kitab oxumaq vərdişini yaratmağa cəhd də etmirlər. Belə yanaşma tərzi kökündən səhvdir: səbrlə, məcbur etmədən, uşaqda kitab oxumağa həvəs yaratmaq lazımdır. Uşağa kitabın məzmunu barədə bir qədər maraqlı məlumat verib marağını oyatmaq, amma tam məzmununu danışmamaq yaxşı üsuldur. Əgər onda maraq oyansa, çox ehtimal ki, özü kitabı götürüb əvvəldən axıra qədər oxuyacaq.

Amma valideynlər görsələr ki, uşaq əvvəlki kimi yenə də oxumağa meyl göstərmir, onda qənaətli oxuma rejiminə keçmək lazımdır. Bu, o deməkdir ki,hər 2-3 sətirdən sonra bir qədər dincəlmək lazımdır. Burada silsilə şəkillərin çox xeyri ola bilər. Uşaq qısa mətni oxuyub şəklə baxar və dərhal növbəti mətnə keçər. Hətta qısa mətnləri valideyn və uşaq növbə ilə də oxuya bilərlər.

Uşağı sürətli mütaliəyə alışdırmaq üçün əla nəticə verən üsullardan biri də yatmazdan öncə kitab oxumaqdır. Məsələ ondadır ki, emosional yaddaş günün sonunda baş vermiş hadisələri ayırır və insan yatdığı zaman hələ də bu hadisələrin təsiri altında olur. Buna görə də beyin sürətli oxunuşu ayıracaq və tədricən ona alışacaq.

Uşağın nə oxuduğu da çox önəmlidir. Pis kitab uşağın zövqünü korlaya bilər. Halbuki bu müddətdə uşaq yaxşı kitab oxuya bilərdi. Məhz bu məqamda uşaqların kitab seçimində kitabxanaçının məsləhəti ilə valideyn nəzarəti çox vacibdir. Bu seçimi asanlaşdırmaq üçün sadəcə yay tətilində oxumaq üçün məlumat-biblioqrafiya şöbəsinin hazırladığı ədəbiyyat siyahısını əldə etmək kifayət edər. Belə siyahılarda  uşaqların yaşları, hansı sinifdə oxumaları nəzərə alınır. Valideynlər rahatlıqla orada qeyd olunan

kitablardan istifadə edə bilərlər. Kitabxanaların yay mövsümündə təşkil etdikləri “Yay oxu zalı”ndan da valideynlər düzgün bəhrələnə bilərlər. Belə ki, ailə bu istirahət məkanlarında təkcə dincəlməyəcək, həm də kitab oxumaqla öz dünyagörüşünü artıracaq, mütaliəyə uşaqların həvəsi artacaqdır. “Yay oxu zallarında” kitabxanaçılar ən gözəl ədəbiyyatları seçib ortaya çıxarmalıdırlar ki, oxucularda mütaliəyə həvəs yaratsınlar. Həmçinin “Yay oxu zalı”ndan istifadə edənlərə kitabxananın əlfəcinləri paylanır, hansı ki, əlfəcində kitabxananın ünvanı, əlaqə telefonu qeyd olunmuşdur. Çox yaxşı olar ki, valideynlər uşaqla oxunan kitabın məzmunu barədə müzakirə aparsınlar. Bu iş həm nitqin inkişafına, həm də məzmunun düzgün anlaşılmasına kömək edir və mühüm tərbiyəvi əhəmiyyətə malikdir. Uşaqların sürətli oxu qabiliyyətinə yiyələnmələri və kitaba sevgi bəsləmələri üçün valideynlərdən böyük səbr və dözüm tələb olunur.

“Oxumaq vərdişi ailədə qazanılmalıdır”.

Psixoloqlar belə hesab edirlər ki, kitab oxumaq vərdişi ilk əvvəl ailədə qazanılmalıdır. Bu səbəbdən də valideynlər uşağı müxtəlif kitablarla təmin etməli, ona tez-tez kitab oxumalıdırlar. Britaniyalı mütəxəssislər hesab edirlər ki, valideynlər kitab almağa uşaqları ilə birgə getməlidirlər. Bu zaman onlara kitab seçmələri üçün istədikləri qədər vaxt verilməlidir. Başlanğıcda övladınıza rahat əldə tuta biləcəyi, içində qısa hekayələri və maraqlı şəkilləri olan kiçik kitablar alın, çünki o, məhz belə kitabları sevir.

Almaniyalı pedaqoqlar deyir ki, nağıllara inamın öldüyü gün uşaqların inkişafı dayanacaq. İndi bir çox valideyn uşaqların daha nağıllara inanmadığından şikayətçidir. Bu inamı yaşatmaq üçün, gələcəyimiz olan uşaqların inkişafı naminə uşaq ədəbiyyatının nəşrini gücləndirmək, səmərəli təcrübələrdən yararlanmaq lazımdır.

MKS-in uşaq şöbələrində və filiallarında, multimedia zalında kompüterin üzərində belə bir yazı qoyulmalıdır: 7 yaşına qədər uşaqlar yalnız valideynin icazəsi olarsa, 20 dəqiqə kompüterdən istifadə edə bilər.

Valideyn guşəsində kompüterin uşaqlara olan zərəri barədə də məlumatlar yerləşməlidir:

Məsələn: **Kompüter: Sağlamlığımıza vurduğu ziyan və onu necə aradan qaldırmaq olar?**

Kompüterin gözə ziyanı nə qədər təhlükəlidir? Kompüter ən çox gözə təsir edir. Adətən istifadəçilər bir az çox işlədikdə baş ağrısı, baş gicəllənməsi olur. Fasilə vermədən kompüterdən istifadə etdikdə isə görmə zəifləyir. Çox vaxt yaxını görmə qabiliyyətinin zəif olması irsi, qaranlıqda mütaliə, televizordan da asılı olur. Kompüterdən düzgün istifadə etdikdə isə bu halların qarşısını almaq olar:

Monitordakı təsvirlərin tez-tez tutulması halları olarsa, ekranı yeniləmək lazımdır.

Təsvirin məzmunu çox olanda göz yorulur. Göz musiqi altında statistik, böyük ölçülü  şəkilli təsvirləri daha asan qəbul edir. Ona görə uşaqlar disklərdən istifasə etdikdə şəkillər musiqili, müəəlifin danışığı ilə verilirsə bunun uşaqların gözünə ziyanı olmur.

Gözü ən çox yoran kompüterdə şəkil çəkməkdir. Burada musiqi əksinə onların fikirlərini yayındırır, hansı ki, bütün işi göz görür.

Görməyə daha çox təsir edən ünsürlərdən biri də mətnin kompüterdən oxunmasıdır. Məhz bu xüsusiyyətinə görə də İnternet- çox təhlükəlidir, ona görə ki, lazım gəlir ki, çox və  tez-tez oxuyasan.

Nəhayət, gözü ən çox öldürən – kompüter oyunlarıdır. Hərəkətli təsvirlər, xırda elementlər – hamısı gözü yorur, hansı ki, onun dincəlməsi çox vaxt tələb edir.

Uşaqların səhhətinə təsir edən ziyanlı faktorlardan biri də kompüterdə işləməkdir. Kompüter arxasında oturarkən ekranla onun arasında müəyyən məsafə (30-40 sm) olmalı, ekrana baxmaqla əlləri də eyni zamanda klaviatura üzərində işləməlidir. Bu hal bədəni müəyyən vəziyyətdə düzgün

saxlamağa xidmət etməklə, işin axırına qədər dəyişməməyə sövq edir. Bu səbəbdən düzgün oturuş vacib şərtlərdəndir:

Tənəffüs sistemi. Klaviaturada yazmaqla əllərin qabağa uzanması döş qəfəsində tənəffüsün azadlığını pozur. Bir çoxlarında öskürək, astma xəstəliklərinin inkişafına səbəb olur.

Kürək, boyun və başda ağrılar. İnsan bədəni uzun müddət eyni vəziyyətdə oturmağa öyrəşməmişdir. Belə halda əzələlərə qan yaxşı işləmir, əsəbləri gərginləşdirir.

Ostexondroz. Uzun müddət kompüter arxasında oturmaq sümük-əzələ sisteminə çox təsir etməklə, onurğa sütununda əyrilik əmələ gətirir.

Əl barmaqlarında damarların gərilməsi. Bu ən çox peşə xəstəliyidir. Kompüterdə işləyərkən çox yazıların yazılması, xırda şriflərlə işləmək həmin adamı yorur, onda xroniki xəstəliyin yaranmasına gətirib çıxarır.

Kompüter arxasında necə oturmaq lazımdır?

Kompüterdən istifadə edərkən oturacağ çox rahat olmalı, rahat vəziyyətdə oturub işləməlisən. Kürəyi oturacağa söykəyib düz oturmalısan, ayaqların isə mütləq döşəməyə dəyməlidir. Başını dik saxlamalı, çox gabağa uzatmamalısan.  Oturacağ bərk olmalı, bel hissə mütləq söykənməlidir. Buna dörə də kompüter alarkən mebellər düzgün seçilməlidir. Masa, oturacaq, digər aksesuarlar xüsusi olaraq uşaqlar üçün seçilməlidir.

Oturacaq rolikdə olmalı, dirsəklər üçün söykənəcək olmamalı, stulun mütləq kürək üçün arxalığı, oturacağı fırlanmalıdır ki, uşaq istədiyi vaxtda oturduğu yerdə başqa istiqamətlərdə dönməklə, həm döş qəfəsi, həm də onurğa sütununu hərəkət etdirə bilsin. Belə oturacaqları hündürlüyə görə uzadıb kiçiltmək olur.

Masa xüsusi olaraq kompüter üçün hazırlanmalı, aşağı siyirməsi diyircəklər üzərində hərəkətli  olur ki, klaviatura onun üzərində yerləşir. Məsələ ondadır ki, uşaq yazanda, şəkil çəkəndə, mausla işləyəndə, ona

hündür masa lazımdır. Çap edəndə klaviatura ilə masanın hündürlüyü arasındakı məsafə 7-10 sm aşağı olmalıdır.

Ən vacib faktorlardan biri də psixi gərginlikdir. Kompüterdə işləyərkən diqqəti cəm etməyi bacarmalısan. Maraqlı oyunlar çox gərginlik tələb edir, hansı ki,  adi şəraitdə bu belə olmur. İşləyərkən mütləq arada (hər 30 dəqiqəyə 15 dəqiqə, böyüklərə isə 10 dəqiqə) tənəffüs etmək lazımdır. Tənəffüs vaxtı gözün yorğunluğunu aradan qaldıran fiziki məşqlər etmək lazımdır.

Uşaq kompüterdə hansı saytlardan istifadə edirsə mütləq valideyn nəzarət etməlidir. Çünki bəzi saytlarda əxlaqa zidd reklamlar gedir.

Şüalanma: Kompüterin monitorundan şüalanma – həmişə valideynləri narahat edən məsələ olmuşdur. Müasir monitorlarda təhlükəsizlik üçün çox şey nəzərə alınmışdır. Belə ki, qamma və neytron şüaları ən təhlükəlidir, monitordan şüalanmır. Monitordan yalnız çox cüzi miqdarda ionlaşdırılmış şüalanma olur ki, bu da təbii radiasiya fonunda 2-3 dəfə azdır. Ona görə insan sağlamlığı üçün təhlükəli deyil. Amma uzun müddət fasilə vermədən kompüter qarşısında oturanların gözü və dərisində allergiyalar ola bilər. Adətən monitora müdafiə ekranı taxırlar.

Zəngin mənəviyyata, yüksək bədii zövqə malik, kamil şəxsiyyət yetişdirilməsi tərbiyəçilərin, metodistlərin, pedaqoqların, kitabxanaçıların daim diqqət mərkəzində olduğu kimi validyenlərin də bir nömrəli işi olmalıdır. Hazırda uşaqların İnternetdən istifadəsi bir reallığa çevrilib: "Bu gün bəzi uşaqların aqressiv olmasının səbəbi nəinki sosial şəbəkələr, hətta televiziyada izlədikləri cizgi filmləridir. Çünki hazırda bir çox xarici cizgi filmlərində xeyirxahlıq, qocaya, kimsəsizə yardım etmək kimi fikirlər deyil, öldürmək, güc tətbiq etmək kimi kadrlar yer alıb. Bundan başqa, əyləncə mərkəzlərində, İnternet klublarda uşaqlar üçün tətbiq edilən oyunlar hamısı mənfi amillər aşılayır. Eləcə də yeniyetmələr saatlarla İnternetdə, Facebook kimi sosial şəbəkələrdə vaxt keçirirlər. İndiki uşaqlar uşaq həyatından kənar

böyüyürlər. Onlar həyətdə uşaqlarla oynamaq, dost olmaq əvəzinə sosial şəbəkələrdə tanımadıqları insanlarla dostluq qurmağa çalışırlar. Valideynlər xüsusilə uşaqlarını həmin sosial şəbəkələrin ziyanı ilə tanış etməli, kitabxanadan R.Əliquliyev və R.Mahmudovun“ İnformasiya asılılığı problemləri və onlarla mübarizə yolları ” (Bakı, Ekspress-İnformasiya nəşriyyatı, 2009-cu il) kitabını mütaliə edib uşaqlarını maarifləndirməlidirlər. Kitabda İnternet-asılılığın tibbi-psixoloji profilaktikası, uşaqların bu təhlükədən qorunması, habelə bu problemlərlə mübarizə sahəsində beynəlxalq təcrübə tədqiq edilir, yeni təklif və tövsiyələr irəli sürülür.

Beynəlxalq Uşaq Kitabı Şurası Andersen mükafatına layiq olan kitabların respublikamızda tərcümə edilərək oxucuların diqqətinə çatdırılması daha önəmlidir. Bu kitabların müzakirəsi yeniyetmə oxucunun bir vətəndaş kimi yetişməsində, günün fövqündə durmasında, sabahkı siyasətin proqnozundan baş çıxarmasında mühüm rol oynayır. Bütün bunlar bu günün yeniyetməsi üçün vacibdir. Çünki bu günün yeniyetmə oxucusu, şagirdi sabah müstəqil respublikamızın çiçəklənib dünyanın ən inkişaf etmiş ölkələrdən birinə çevrilməsi işində aparıcı qüvvə olacaqdır. Onu bu işə hazırlamaq valideyn, müəllimlərlə bərabər həm də kitabxanaçının vəzifəsidir. İlk növbədə hər bir kitabxanaçı müasir ədəbiyyatla tanış olmalı, öyrənməli və oxucuya çatdırmalı, bu işdə kitabxana işinin bütün forma və metodlarından istifadə etməlidir. Kitabların müzakirəsi zamanı həmin kitabın elektron təqdimatı hazırlanmalıdır. Təqdimatda əsərlə bağlı maraqlı suallar qoyulmalıdır. Müzakirələr zamanı oxucular öz fikirlərini sərbəst şəkildə söyləməklə geniş informasiya əldə etməyə nail olurlar.

Həyatımız yeniliklərlə, quruculuq işləri ilə zəngindir. Müstəqil Azərbaycanın azad övladı olan uşaqlar təkcə fantastik xəyallarla deyil, texnoloji reallıqlarla yaşayırlar. Bugünün uşaqlarının həyatı, romantikası,

düşüncələri, marağı həyatın özü qədər yenidir, cəlbedicidir. Uşaq yazıçılarının məhz kitabxanada birləşməsinə ehtiyac vardır. Belə ki, qloballaşan dünyanın tələbləri uşaq ədəbiyyatının təbliğində, yayılmasında özünü göstərməlidir. Dünyada şöhrət qazanan ən yaxşı uşaq əsərləri tərcümə edilərək uşaqlarımıza çatdırılmalı, onların dünyagörüşlərinin artmasında mühüm rol oynamalıdır.

MÜNDƏRİCAT

**Ön söz ..........................................................................................2**
**Giriş ...............................................................................................4**
**I Kitabxanada dərslərin təşkili .....................................................7**
**Dərnəklərin təşkili...............................................................12**
**Viktorinaların və oyunların təşkili......................................14**
**Nağıl otağı...........................................................................16**
**II Uşaqlarda mütaliə mədəniyyətinin aşılanması ............................27**
**Oxucuların informasiya mədəniyyəti..................................30**
**Litva Milli Uşaq Ədəbiyyatı Mərkəzinə səyahət............... 31**
**Kompüter və uşaq yaradıcılığı............................................ 34**
**III Validеynlər və uşaq mütaliəsinə rəhbərlik edənlərlə iş.............. 35**
**"Kitabları uzun ömürlü edək" ............................................ 36**

*Metodik vəsaiti hazırladı: F.Köçərli adına Respublika Uşaq Kitabxanasının elmi işlər üzrə direktor müavini Zahirə Dadaşova*